Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 105 (7832) CÜMƏ, 11 may 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# Əbədiyyət zirvəsi



Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü günüdür.

Ardı 2-ci səh.

# Heydər Əliyevin liderlik keyfiyyətləri və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir

## *Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib*

Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər. Dövlət başçısı mərasimdə nitq söylədi.



## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümüdür. Bu gün Azərbaycan xalqı bir daha ulu öndərin əziz xatirəsinə öz hörmət və ehtiramını bildirir.

Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur.

Sovet dövründə Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycan uğurla, sürətlə inkişaf edib. 1969-cu ildə o, Azərbaycan Respublikasının rəhbəri seçiləndə Azərbaycan sovet məkanında ən geridə qalmış respublikalardan biri idi. Bunu sosial-iqtisadi göstəricilər də təsdiq edir. On üç il ərzində yorulmaz fəaliyyət nəticəsində Azərbaycan sovet məkanında ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Əgər sovet dövründə - 1980-ci illərdə iki donor respublika var idisə, onlardan biri Azərbaycan idi. Azərbaycan ümumittifaq xəzinəsinə daha çox vəsait verirdi, nəinki alırdı.

Məhz o illərdə Azərbaycanda sənaye inkişafı böyük templərlə təmin olunurdu. Yüngül sənayedə, ağır sənayedə, neft sənayesində böyük işlər görülmüşdür. O vaxt yaradılmış infrastruktur bu gün müstəqil Azərbaycanın inkişafına xidmət göstərir. Kənd təsərrüfatına böyük diqqət göstərilirdi. Azərbaycan böyük tikinti meydançasına çevrilmişdi. Yəni, 1982-ci ilin sosial-iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, doğrudan da, Heydər Əliyevin rəhbərliyi ilə 13 il ərzində böyük işlər görülmüşdür və Azərbaycan, qeyd etdiyim kimi, qabaqcıl yerlərdə idi.

Onun gördüyü işlər, prinsipiallığı, şəxsi keyfiyyətləri, əlbəttə ki, sovet rəhbərliyində də yüksək qiymətləndirilirdi. 1982-ci ildə Leonid Brejnev vəfat edəndən və Yuri Andropov hakimiyyətə gələndən sonra onun ilk təyinatı məhz Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Heydər Əliyevi Moskvaya dəvət etmiş və ona yüksək vəzifə təklif etmişdir - Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü vəzifələrini.

Mən yaxşı xatırlayıram, atam bir neçə gün tərəddüd edirdi, Azərbaycandan getmək istəmirdi. Onun gördüyü işlər, əlbəttə ki, Azərbaycanı böyük dərəcədə inkişaf etdirmişdi və Azərbaycanın gələcək inkişafı ilə bağlı böyük planları var idi. Ancaq o vaxt təbii ki, güclü nizam-intizam var idi və eyni zamanda, sovet dövləti qarşısında yeni vəzifələr durmuşdu və o, bu yüksək məsuliyyəti öz üzərinə götürmüşdü.

Ardı 5-ci səh.

# Ulu öndərin xatirəsi ağacəkmə aksiyası ilə anıldı



**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə aksiyasında iştirak ediblər.**

Ardı 2-ci səh.

# Qəhrəmanlar unudulmur

**İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.**







AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci Dünya müharibəsində keçmiş SSRİ-nin qazandığı tarixi Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddəüç hissəsi, aviasiya benzini və yüksəkkeyfiyyətli motor yağlarının 85-90 faizi Azərbaycanın payına düşüb.

Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus, Pribaltika cəbhələrində cəsarətlə vuruşublar. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferopolun, Odessanın, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya isə Yuqoslaviyanın azadlığı uğrunda fəal iştirak ediblər.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir. Bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir. Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi. Ümummilli lider onları "Xalqımızın qızıl fondu" adlandırırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır. 9 may - Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir. Bu isə həmin kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir.

Ardı 4-cü səh.

AZƏRBAYCAN www.azerbaijan-news.az

# Əbədiyyət zirvəsi

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları və yaxınları xalqımızın xilaskar oğlunun doğum günündə ümummilli liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, ulu öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət himni səsləndi.

Sonra dövlət başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.









# Ulu öndərin xatirəsi ağacəkmə aksiyası ilə anıldı

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev görülən işlərlə bağlı Prezident İlham Əliyevə məlumat verdi.

Dövlət başçısının tapşırıqlarına və tövsiyələrinə uyğun olaraq 2008-2018-ci illərdə ölkənin əsas magistral avtomobil yolları boyunca 4443 hektar sahədə salınan yaşıllıqlarda 5 milyon 436 min müxtəlif növ ağac və kol bitkiləri əkilib. Həmin ağacların əkildiyi sahələr damcılı suvarma sistemi ilə təchiz edilib. Əsasən zeytun, badam, nar, innab, püstə, qoz və fındıq ağaclarının əkilməsinə üstünlük verilib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkdilər.

Ulu öndər Heydər Əliyevin doğum günündə Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq massivində Ekologiya və Təbii Sərvətlər Nazirliyi "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" Açıq Səhmdar Cəmiyyətinin tinglik sahələrində kökübağlı şəraitdə yetişdirilən 7 minə yaxın ağac əkildi.

Qeyd edək ki, ekologiyanın və ətraf mühitin mühafizəsi Azərbaycan dövlətinin qarşısında duran əsas istiqamətlərdən biridir. Ölkəmizin zəngin flora və faunasının qorunması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən bütün dövrlərdə çox böyük işlər görülüb. Ulu öndər tərəfindən əsası qoyulan ənənəni bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Təsadüfi deyil ki, Azərbaycanda reallaşdırılan milli inkişaf strategiyasının prioritet sahələrindən biri də ətraf mühitin mühafizəsini və insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Prezident İlham Əliyev tərəfindən 2010-cu ilin ölkədə "Ekologiya ili" elan edilməsi bunun bariz nümunəsidir.






Dövlət başçısı və birinci xanım ağacəkmə aksiyasının iştirakçıları ilə xatirə şəkilləri çəkdirdilər.

Prezident İlham Əliyev neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşıb. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı ölkədə ciddi əməli işlər görülüb, milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıb. Bir vaxtlar neft tullantıları ilə çirklənən indiki "Ağ şəhər" və digər ərazilərdə həyata keçirilən mühüm layihələr nəticəsində neft çöküntüləri təmizlənib. Hazırda bu ərazilər paytaxtın yeni yaşayış və mədəniyyət komplekslərinə, Prezident İlham Əliyevin dediyi kimi, müasir ekoloji layihələrə çevrilib.

*Ardı 3-cü səh.*

# Ulu öndərin xatirəsi ağacəkmə aksiyası ilə anıldı











*Əvvəli 2-ci səh.*

Bütün bunlar ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir. Ekoloji vəziyyətin yaxşılaşdırılması üçün tədbirlərin görülməsi, həmçinin qanunsuz ağac kəsilməsinə qarşı dövlət başçısının nümayiş etdirdiyi qətiyyətli mövqenin təməlində isə yalnız bir amal dayanıb: insanların sağlamlığının qorunması.

Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.

Qeyd edək ki, müxtəlif vaxtlarda həyata keçirilən ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə edib. Bu gün vətəndaşların ağacəkmə aksiyalarında, yaşıllıqlar salınmasında, şəhər və rayonlarımızda təmizlik işlərində fəal iştirakı bunun əyani göstəricisidir. Ekspertlərin fikrincə, hazırda Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunə ola bilər.

# Leyla Əliyevanın iştirakı ilə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib











Mayın 10-da IDEA İctimai Birliyinin təşkilatçılığı və Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş növbəti həyət Nizami rayonu, Məmməd Xəlil Şərifli və Şirin Mirzəyev küçələrinin kəsişməsində 10 minə yaxın sakinin məskunlaşdığı 7 çoxmərtəbəli binanı əhatə edir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib. "Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Nizami Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan və 6 min kvadratmetr sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə əyləncə qurğuları yerləşdirilib və idman alətlərindən ibarət kiçik meydança salınıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqlarını nəzərə alaraq, çoxmənzilli binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 150-yə yaxın ağac və kol, 1500-ə yaxın dekorativ gül əkilib.

Qeyd edək ki, "Bizim həyət" layihəsinə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilib. Nizami rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan dördüncü həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Qəhrəmanlar unudulmur







*Əvvəli 1-ci səh.*

İkinci Dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdikləri qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 73 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

Prezident, Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin qarşısından keçdi.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə günü münasibətilə onları təbrik etdilər.

Mərasimdə Baş nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.











## Santiaqo Qarsia Mila:

## "Bakı artıq beynəlxalq ticarət qovşağına çevrilib"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Beynəlxalq Limanlar Assosiasiyasının prezidenti Santiaqo Qarsia Milanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Santiaqo Qarsia Mila Beynəlxalq Limanlar Assosiasiyasının Bakıda keçirilən illik konfransında iştirakından böyük məmnunluq hissi keçirdiyini qeyd edərək tədbirdə 65 ölkədən 400-dən artıq nümayəndənin iştirakının böyük önəm daşıdığını vurğuladı. O bildirdi ki, bu nümayəndələr Beynəlxalq Limanlar Assosiasiyasına üzv olan və dünyanın dəniz yükdaşımalarının təxminən 70 faizini əhatə edən limanları təmsil edirlər.

Tədbirin Azərbaycanda yüksək səviyyədə təşkil olunduğunu vurğulayan Santiaqo Qarsia Mila paytaxtımızda gördükləri inkişaf proseslərinin onlarda böyük təəssürat yaratdığını məmnunluqla qeyd etdi. Bakının artıq beynəlxalq ticarət qovşağına çevrildiyini deyən qonaq böyük İpək yolu, "Bir kəmər, bir yol" layihələrində Azərbaycanın önəmli rol oynayacağına ümidvar olduğunu bildirdi. Santiaqo Qarsia Mila Beynəlxalq Limanlar Assosiasiyasının illik konfransının Bakıda keçirilməsinin əlamətdar hadisə olduğunu və tədbirin gələn il Çində təşkil ediləcəyini dedi.

Prezident İlham Əliyev Beynəlxalq Limanlar Assosiasiyasının Bakıda keçirilən illik konfransının önəminə toxunaraq xeyli sayda ölkənin nümayəndələrinin burada iştirakından məmnunluğunu ifadə etdi. Tədbirin keçirilməsi üçün Bakını seçdiklərinə görə minnətdarlığını bildirən dövlət başçısı ölkəmizdə digər sahələr kimi, nəqliyyat sektorunda da böyük uğurların əldə olunduğunu məmnunluq hissi ilə qeyd edərək Azərbaycanın artıq beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrildiyini dedi. Ölkəmizin coğrafi mövqeyinin bu işdə rolunu qeyd edən Prezident İlham Əliyev bunun həm də Azərbaycanda müasir nəqliyyat infrastrukturuna qoyulan böyük həcmdə investisiyanın nəticəsi olduğunu bildirdi. Dövlət başçısı qeyd etdi ki, bu, özünü təkcə Ələtdəki Yeni Bakı Limanında deyil, müasir dəmir və avtomobil yolları, eləcə də hava limanlarının inşasında da göstərir. Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi layihələrinə toxunan dövlət başçısı həmin layihələrin icrası nəticəsində bu istiqamətdə Azərbaycan ərazisindən mühüm beynəlxalq daşımaların həyata keçiriləcəyini qeyd etdi.

Nəqliyyat infrastrukturunun bu gün Azərbaycanda çox yüksək səviyyədə olduğunu bildirən Prezident İlham Əliyev Yeni Bakı Limanının birinci fazasının tam şəkildə yaxın zamanlarda başa çatacağını dedi və bütün bunları Azərbaycanın nəqliyyat sahəsində beynəlxalq əməkdaşlığa verdiyi töhfə kimi dəyərləndirdi.

## Sultan Əhməd bin Sulaim:

## "Azərbaycana hər səfərimdə böyük inkişaf proseslərinin şahidi oluram"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da "DP World" şirkətinin prezidenti Sultan Əhməd bin Sulaimi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Sultan Əhməd bin Sulaim Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazir və Dubayın hökmdarı Şeyx Məhəmməd bin Raşid Al Məktumun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Beynəlxalq Limanlar Assosiasiyasının Bakıda keçirilən illik konfransında iştirakından məmnunluğunu ifadə edən Sultan Əhməd bin Sulaim bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu və beynəlxalq əməkdaşlıq işinə mühüm töhfə verdiyini vurğuladı. O, hər dəfə Azərbaycana səfəri zamanı ölkəmizdə böyük inkişaf proseslərinin şahidi olduğunu, Bakıda xarici turistlərin sayının sürətlə artdığını müşahidə etdiklərini dedi.



Prezident İlham Əliyev Beynəlxalq Limanlar Assosiasiyasının illik konfransının Bakıda keçirilməsinin önəmini qeyd etdi və bunu beynəlxalq nəqliyyat daşımalarında ölkəmizin rolunun artmasının göstəricisi kimi dəyərləndirdi. Dövlət başçısı nəqliyyat infrastrukturu sahəsində Azərbaycanın son illər böyük uğurlar qazandığını dedi. Prezident İlham Əliyev digər sahələrdə olduğu kimi, ölkəmizdə turizmin inkişaf etdirilməsi sahəsində də ardıcıl addımların atıldığını, Azərbaycana müxtəlif ölkələrdən, o cümlədən Birləşmiş Ərəb Əmirliklərindən gələn qonaqların sayının durmadan artdığını qeyd etdi.

Dövlət başçısı Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazir və Dubayın hökmdarı Şeyx Məhəmməd bin Raşid Al Məktumun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Raşid Al Məktuma çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.

## Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Cəfərov Cavanşir Xəlil oğlu
Nikuşina Aleksandra Konstantinovna
Novruz Ramiz Qəvvam oğlu
Şəfiyeva Gülçöhrə Məmməd qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 may 2018-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Zati-aliləri, 2015-ci ildə Bakıda I Avropa Oyunları keçirilərkən mənə Beynəlxalq Paralimpiya Komitəsinin indiki prezidenti Endrü Parsonla birlikdə Sizinlə görüşmək şərəfi nəsib olmuşdur.

Avropa Oyunlarının keçirilməsi ilə əlaqədar Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlıq zamanı, cənab Prezident, Sizin və birinci xanım Mehriban Əliyevanın paralimpiya idmançılarına və fiziki qüsurlu uşaqlara göstərdiyiniz diqqət və qayğının şahidi olmuşam və bunu yüksək qiymətləndirirəm.

Zati-aliləri, Sizə və ailənizə, həmçinin Azərbaycan xalqına qarşıdakı illərdə bol-bol uğurlar və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Entoni SENSBER,***
***Britaniya Paralimpiya Assosiasiyasının fəxri vitse-prezidenti***

Çox hörmətli İlham Heydər oğlu!

İcazə verin Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun (BNTİ) rəhbərliyi və beynəlxalq tərkibli kollektivi adından səmimi qəlbdən təbrik edim.

Prezident seçkilərində Sizin inamlı qələbəniz ölkə iqtisadiyyatının, milli elmin və beynəlxalq əlaqələrin innovasiyayönümlü inkişaf kursunuza ümumxalq dəstəyinin parlaq sübutudur.

Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan alimləri BNTİ çərçivəsində fundamental və tətbiqi fizika sahəsində aparılan tədqiqatlarda fəal iştirak edirlər. Azərbaycanın tədqiqat mərkəzləri ilə bizim institut arasında əməkdaşlıq uğurla həyata keçirilir.

Ümidvaram ki, Azərbaycan alimləri və BNTİ arasında səmərəli qarşılıqlı fəaliyyət nəticəsində əldə olunmuş təcrübə daha da genişlənəcəkdir.

Çox hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və yeni-yeni uğurlar, Azərbaycan Respublikasının xalqına isə sülh, firavanlıq və tərəqqi arzu edirəm.

Dərin və səmimi hörmətlə,

***Viktor MATVEYEV,***
***Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru, Rusiya Elmlər Akademiyasının akademiki***

# Heydər Əliyevin liderlik keyfiyyətləri və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib*





Əvvəli 1-ci səh.

1982-1987-ci illərdə o, bir çox önəmli sahələrə rəhbərlik edərək sovet dövlətinin uğurlu inkişafına öz töhfəsini vermişdir. Onun bilavasitə rəhbərliyi ilə böyük infrastruktur layihəsi olan Baykal-Amur dəmir yolu uğurla inşa edilmişdir, onun tikintisi tamamlanmışdır.

Eyni zamanda, daim Azərbaycana böyük diqqət, kömək göstərirdi. Əlbəttə, onun burada gördüyü işlər və fəaliyyəti imkan verirdi ki, o, Azərbaycanı tərk edəndən sonra da Azərbaycan inkişaf etsin. Ancaq buna baxmayaraq, respublikada sosial-iqtisadi göstəricilər getdikcə aşağı düşürdü, vəziyyət tənəzzülə uğrayırdı. Nəticədə 1980-ci illərin sonlarında - 1990-cı illərin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdır.

Bir sözlə, o dövrdə ulu öndər çox böyük işlər görmüşdür və sovet məkanında onun xatirəsinə bu gün çox böyük hörmət və ehtiram var. Mənim onunla bərabər işləyən şəxslərlə çoxsaylı görüşlərim deməyə əsas verir ki, o, sözün əsl mənasında, böyük hörmətə layiq olan insan idi.

1987-ci ildə heç bir əsas olmadan ovaxtkı sovet rəhbərliyi tərəfindən Heydər Əliyev bütün vəzifələrdən uzaqlaşdırıldı. Bunun heç bir əsası yox idi. Çünki onun peşəkarlığı, gördüyü işlərin nəticələri, əlbəttə ki, ona qarşı edilən ədalətsizliyə uyğun gəlmirdi. Ancaq o vaxt sovet rəhbərliyində olan adamlar, sovet dövlətinin rəhbəri ona qarşı çox mənfi münasibət göstərirdi. Heydər Əliyev çox prinsipial, sözünü deyən insan idi. O görürdü ki, ölkədə vəziyyət pisləşməyə doğru gedir. O görürdü ki, real islahat əvəzinə, boşboğazlıq, populizm hökm sürür. O görürdü ki, qəbul edilmiş qərarlar sovet dövlətinin zəifləməsinə xidmət göstərir. Eyni zamanda, 1985-ci ildən başlayaraq Sovet İttifaqında milli münasibətlər sahəsində çox böyük pozuntulara yol verilmişdir. Sovet dövlətini vahid bir dövlət kimi saxlayan, ilk növbədə, milli münasibətlərin tənzimlənməsi idi. 1985-ci ilə qədər bu münasibətlər demək olar ki, sağlam zəmində qurulmuşdur. Bütün xalqlar rahat inkişaf edə, öz mədəniyyətini qoruya bilirdilər.

Ona görə bütün bu xoşagəlməz meyillərə qarşı Heydər Əliyev biganə qala bilməzdi, öz səsini ucaldırdı və əlbəttə ki, bu, sovet rəhbərliyinin xoşuna gəlmirdi. Heç bir əsas olmadan bütün vəzifələrdən uzaqlaşdırılandan sonra Azərbaycan böyük dayağı itirmiş oldu. Bizim mənfur qonşularımız dərhal bundan istifadə etdilər, onun istefasından iki həftə keçməmiş erməni separatçıları və onların mərkəzdəki havadarları məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilsin.

Yəni, Heydər Əliyev amili, güclü şəxsiyyətin dövlətin mərkəzində olması imkan vermirdi ki, belə separatçı meyillər baş qaldırsın. Baxmayaraq ki, 1969-cu ilə qədər belə meyillər var idi. Ancaq Heydər Əliyev Azərbaycana rəhbər vəzifəsinə gələndən sonra bütün bu meyillərin qarşısı alınmışdır.

O vaxtdan xalqımıza, respublikamıza qarşı çox böyük ədalətsizliklər edilmişdir. Bunun nəticəsində Azərbaycan böyük fəlakətlə üzləşmişdir. Tam əminliklə deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, Azərbaycan rəhbəri kimi heç vaxt imkan verməzdi ki, separatçı meyillər baş qaldırsın və Dağlıq Qarabağ münaqişəsi başlasın. Çünki onun qətiyyəti, cəsarəti, nüfuzu heç vaxt imkan verməzdi ki, belə meyillər mövcud olsun. Ancaq ondan sonrakı rəhbərlər, əfsuslar olsun ki, zəiflik göstərmişlər, prinsipiallıq göstərməmişlər və onlar üçün öz şəxsi karyerası xalqın mənafeyindən qat-qat böyük əhəmiyyət kəsb edirdi.

1990-cı ilə qədər Heydər Əliyev pensiyaçı kimi yaşayırdı. Baxmayaraq ki, Heydər Əliyevə qarşı mərkəzdə təşkil edilmiş qarayaxma kampaniyaları aparılırdı, ancaq Azərbaycan xalqı ona olan hörmətini daim öz qəlbində yaşadırdı. 1990-cı ilin faciəvi günlərində Heydər Əliyev əsl lider kimi yenə də öz xalqının yanında yer tutdu, xalqa yol göstərdi. Mən o dəhşətli günləri yaxşı xatırlayıram, sovet hökuməti, sovet rəhbəri tərəfindən Azərbaycan xalqına qarşı böyük cinayət törədilmişdi. Qanlı Yanvar faciəsi böyük cinayətdir, öz xalqına qarşı böyük cinayətdir. Yüzdən çox günahsız insan vəhşicəsinə qətlə yetirilmişdir, yüzlərlə insan yaralanmışdır və itkin düşmüşdür. Heydər Əliyev dərhal bu ədalətsizliyə qarşı öz səsini ucaltdı. Yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, - mən də onun yanında idim, - orada sovet rəhbərliyini, bu vəhşi aktı pislədi və Azərbaycan xalqına öz həmrəyliyini ifadə etdi. Bu, böyük cəsarət tələb edən addım idi. Çünki o vaxt Heydər Əliyev sovet təbliğatında çox böyük təzyiqlərə, böyük kampaniyalara məruz qalırdı. Ancaq xalqın ona olan sevgisini bu çirkin əməllər söndürə bilməzdi. Əksinə, xalq görürdü ki, öz liderinə qarşı böyük ədalətsizlik törədilir və onun ətrafında daha da sıx birləşməyə cəhd göstərirdi. 1990-cı il yanvarın 21-də Heydər Əliyevin Moskvada daimi nümayəndəlikdə keçirilmiş mətbuat konfransındakı çıxışı dəfələrlə dərc edilib, televiziyada göstərilib. Yenə də deyirəm, bu, böyük cəsarət tələb edən addım idi. Bu addım bir daha göstərirdi ki, Azərbaycan xalqının problemləri, mənafeyi, dərdi onun üçün hər şeydən üstündür, hər şeydən əzizdir və ağır günlərdə o, mütləq öz xalqının yanında olmalı idi. Onu da qeyd etməliyəm ki, o vaxt sovet hakimiyyəti hələ möhkəm idi, Sovet İttifaqının dağılmasına hələ iki il vaxt qalırdı. Heç kimin ağlına gələ bilməzdi ki, nə vaxtsa sovet dövləti dağılacaq.

Ondan sonra Heydər Əliyev uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarından çıxdı. Çox ciddi bəyanat vermişdi və təbii ki, ona qarşı bundan sonra da təzyiqlər, təqiblər daha da geniş vüsət almışdı, hətta tam dəqiq məlumata görə, onun həbsi məsələsi də qoyulmuşdu. Moskvada qalmaq mümkün deyildi, onun bütün ailə üzvlərinə qarşı da çox ciddi addımlar atılmışdı. Bütün ailə üzvləri tutduqları vəzifələrdən, - vəzifələr o qədər də böyük vəzifələr deyildi, adi vəzifələr idi, - çıxarılmışdı. Demək olar ki, sovet hakimiyyətinin repressiya maşınının nəticələrini biz o vaxt görmüşük və hiss etmişik.

Heydər Əliyev doğma vətənə üz tutur və Bakıya gəlir. Əfsuslar olsun ki, Bakıda da ona yaşamağa imkan vermədilər və Naxçıvana - doğulduğu yerə gedib orada yaşamağa məcbur olur və Azərbaycan xalqı onun ətrafında birləşməyə başlayır. Azərbaycan xalqı açıq-aydın görürdü ki, bu ağır vəziyyətdən xalqı ancaq Heydər Əliyev çıxara bilər, xalqı ancaq o xilas edə bilər. Naxçıvanlılar onun ətrafında sıx birləşərək Heydər Əliyevi Ali Məclisin Sədri vəzifəsinə seçdilər və o, Naxçıvanı işğaldan qorudu. Çünki o vaxt Ermənistan Naxçıvanı da işğal etmək istəyirdi. Ancaq Heydər Əliyev buna imkan vermədi. Orada böyük səfərbərlik işləri görülmüşdür, özünümüdafiə dəstələri yaradılmışdır və Naxçıvanın işğalına imkan verilməmişdir. Naxçıvanlılar da Heydər Əliyevi qorudular. Çünki o vaxt - 1992-ci ildə hakimiyyəti qanunsuz, dövlət çevrilişi nəticəsində zəbt etmiş AXC-Müsavat hakimiyyəti Heydər Əliyevə qarşı işlərə başlamışdı və Naxçıvanda da çevriliş etmək fikirləri var idi. Hətta o vaxt Daxili İşlər Nazirliyinin daxili qoşunlarının bir dəstəsini Naxçıvana desant göndərmək istəmişlər, naxçıvanlıları, Heydər Əliyevi hədələmişdilər, ancaq sonra bu çirkin əməllərdən əl çəkməli oldular. Çünki gördülər ki, onları çox ciddi müqavimət gözləyir və bu, avantüra onlara çox baha başa gələ bilər və yenə də, - sonra da bunu dəfələrlə göstərəcəklər, - qorxaqlıq göstərərək öz çirkin niyyətlərindən əl çəkməli oldular.

Naxçıvan dövrü çox yaddaqalan dövrdür. Mən o dövrü çox yaxşı xatırlayıram. Mən dəfələrlə Naxçıvana atamın yanına getmişəm, onunla bərabər olmuşam. Çox ağır vəziyyətdə Naxçıvanın qorunması, Naxçıvanın yaşaması üçün çox böyük işlər görülmüşdür. Müstəqilliyimiz üçün də çox böyük işlər görülmüşdür. Çünki uzun fasilədən - 1920-ci ildən sonra ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin sessiyasında rəsmi dövlət bayrağı kimi təsdiq olundu. Bu, müstəqilliyə gedən yolun başlanğıcı idi.

Azərbaycanda vəziyyət getdikcə gərginləşirdi, torpaqlarımız erməni işğalı altına düşürdü. Ovaxtkı AXC-Müsavat hakimiyyəti xalqın ümidlərini doğrulda bilmədi, öz yarıtmaz, xəyanətkar siyasəti ilə Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə böyük zərbələr vurdu və demək olar ki, ölkəni idarəolunmaz vəziyyətə gətirdi. Xaos, anarxiya, talançılıq, özbaşınalıq, siyasi, iqtisadi, hərbi böhran hökm sürürdü, torpaqlarımız işğal altına düşürdü. Azərbaycanın ovaxtkı iqtidarı isə öz laxlayan hakimiyyətini qorumaq üçün cinayətlərə, vətəndaş müharibəsinə əl atmışdır. Biz o günləri, o illəri yaxşı xatırlayırıq. Öz hakimiyyətini saxlamaq üçün Gəncəni bombalamağa qərar vermişdi və Gəncənin dağılmış binalarının o mənzərəsi bu gün bizim gözümüzün qabağındadır. Azərbaycan xalqı o antimilli hakimiyyətə yox demişdir, cəmi bir il ona dözə bilmişdir və öz lideri ətrafında birləşmişdir. Hələ 1992-ci ildə Azərbaycanın qabaqcıl ziyalıları, tanınmış insanlar, ictimai xadimlər Heydər Əliyevə müraciət edərək partiyanın yaradılması ilə bağlı təkliflər irəli sürmüşlər və 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Bu da gənc dövlətin siyasi sisteminin yaradılması demək idi. Çünki o günə qədər Azərbaycanda siyasi sistem yox idi, siyasi münasibətlər, ümumiyyətlə, mövcud deyildi. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Bakıya gəlmişdir. Ovaxtkı AXC-Müsavat hakimiyyəti yenə də qorxaqlıq göstərərək kənara çəkilmiş, ölkə, demək olar ki, idarəolunmaz vəziyyətə düşmüşdü. O ağır, çətin vəziyyətdə xalq bu tarixi missiyanı Heydər Əliyevə həvalə etmişdir.

1993-cü ildən başlayaraq Azərbaycan bugünə qədər uğurlu inkişaf yolu ilə gedir. Baxmayaraq, 1994-cü və 1995-ci illərdə iki dəfə dövlət çevrilişinə cəhd göstərilmişdir, ancaq Azərbaycan xalqı imkan vermədi ki, cinayətkar ünsürlər hakimiyyəti bir daha qanunsuz zəbt etsinlər. Əlbəttə ki, Heydər Əliyevin nüfuzu, onun cəsarəti, onun siyasəti imkan vermədi ki, kimsə hakimiyyəti qanunsuz yollarla zəbt etsin.

Ondan sonra Azərbaycanda sabitlik dövrü başlamışdır və bu dövr bu gün də davam edir. Ölkəmiz üçün çox önəmli qərarlar qəbul edilmişdir, siyasi islahatlara start verilmişdir. Məhz o illərdə bizim inkişafımızla bağlı strateji seçimlər edilmişdir ki, Azərbaycan müasir, demokratik ölkə kimi inkişaf etməlidir. İqtisadi islahatlara start verilmiş, bazar iqtisadiyyatı prinsipləri əsas prinsiplər kimi tətbiq olunmağa başlamışdır. Azərbaycan beynəlxalq aləmlə münasibətləri qura bilmişdir və demək olar ki, müstəqilliyimizin ilk illərində mövcud olan beynəlxalq təcriddən də çıxa bilmişdir. Ölkəmiz üçün lazım olan beynəlxalq əlaqələr Azərbaycana investisiya cəlb edilməsinə gətirib çıxarmışdır. 1994-cü ildə “Əsrin kontraktı” imzalanmışdır. Bu kontraktın bizim tariximizdə, iqtisadi inkişafımızda müstəsna rolu vardır. 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edilmişdir. Eyni zamanda, 20 Yanvar faciəsinə siyasi və hüquqi qiymət verilmişdir. Əfsuslar olsun ki, ondan əvvəlki hakimiyyət bu məsələyə biganə qalmışdır. Azərbaycan uğurla inkişaf etməyə başlamışdır. 1993-2003-cü illərdə ölkə qarşısında duran vəzifələr uğurla icra edilmişdir. Ordu quruculuğu işində böyük addımlar atılmışdır, uğurlu Horadiz əməliyyatı keçirilmişdir və torpaqlarımızın bir hissəsi işğalçılardan azad edilmişdir. Yəni, 10 il ərzində Azərbaycanda dövlət quruculuğu işində çox böyük addımlar atılmışdır və bu addımlar bu gün bizim uğurlu siyasətimizi şərtləndirir.

2003-cü ilin oktyabr ayında Heydər Əliyev xalqa müraciətində görülmüş işlərlə bağlı öz fikirlərini bildirmiş və əminliyini ifadə etmişdir ki, onun davamçıları onun yolu ilə gedərək Azərbaycanı ondan sonra da uğurla idarə edə bilərlər.

2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərmişdir və o gündən bugünə qədər çalışıram ki, bu etimadı doğruldum. 2003-cü ildə prezident seçkiləri ərəfəsində söz vermişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasəti Azərbaycanda davam etdiriləcəkdir. Fəxr edirəm ki, sözümə əməl etdim və son 15 il ərzində Azərbaycan Heydər Əliyevin qoyduğu yolla uğurla, inamla gedir. Azərbaycanda sabitlik tam təmin olunur, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Biz indi görürük ki, dünyanın müxtəlif yerlərində vəziyyət gərginləşir, yeni münaqişələr, qanlı toqquşmalar, vətəndaş müharibələri, çevrilişlər baş verir. Ona görə baş verir ki, insanlar hakimiyyətdən narazıdırlar. Ona görə baş verir ki, hakimiyyət lazım olan səviyyədə, düzgün siyasət aparmır, insanları narahat edən problemləri həll etmir, iqtisadi inkişafı təmin edə bilmir, böyük pozuntulara yol verir. Azərbaycanda isə sabitliyin təminatçısı, onun qarantı Azərbaycan xalqıdır və xalq-iqtidar birliyidir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit və ən uğurla inkişaf edən ölkələrdən biridir.

Azərbaycan dövləti möhkəm əsaslar üzərində qurulubdur. Biz son 15 il ərzində milli dəyərlərimizlə bağlı çox ciddi siyasət aparırıq. Bizim milli dəyərlərimiz, ənənəvi dəyərlər bizim üçün əsasdır. Çox şadam ki, bu gün gənc nəsil milli ruhda tərbiyə olunur və milli ləyaqət hissləri güclənir, müstəqillik ən böyük sərvət kimi cəmiyyət tərəfindən qəbul edilir və dəstəklənir.

Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində nümunəvi ölkəyə çevrilibdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri Azərbaycan səması altında bir ailə kimi, sülh, mehribanlıq, dostluq şəraitində yaşayırlar. Bu, bizim böyük sərvətimizdir və bu, bizim siyasətimizin böyük uğurudur.

Azərbaycan beynəlxalq aləmdə böyük nüfuza malik olan bir ölkədir. Bizim bir çox ölkələrlə bərabərhüquqlu, gözəl, konstruktiv münasibətlərimiz vardır. Biz prinsipial mövqeyimizdən heç vaxt bir addım geri atmırıq. Tərəfdaşlarımızla qarşılıqlı maraqlar üzərində qurduğumuz münasibətlər, düzgün xarici siyasət bizə imkan verir ki, həm beynəlxalq arenada öz gücümüzü, təsir imkanlarımızı artıraq, eyni zamanda, daxili problemləri, xüsusilə iqtisadi inkişafla bağlı olan problemləri həll edək.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. 2003-2018-ci illərdə - 15 il ərzində bir çox beynəlxalq təşkilatlar - BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar bu münaqişə ilə bağlı bizim mövqeyimizi, ədaləti əks etdirən qərar və qətnamələr qəbul etmişlər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmalıdır, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. Münaqişənin digər həlli yolları yoxdur. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, heç vaxt olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycan xalqı və dövləti heç vaxt imkan verməz ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Əgər kimsə başqa cür fikirləşirsə, hesab edirəm ki, o, əbəs yerə illüziyalarla yaşayır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə və qeyd-şərtsiz təmin edilməlidir. Bunu ədalət və beynəlxalq hüquq tələb edir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bunu tarix deyir, mədəniyyət deyir, bunu beynəlxalq hüquq deyir. Dağlıq Qarabağda keçirilmiş son qondarma “referendum” heç bir ölkə, heç bir beynəlxalq təşkilat tərəfindən tanınmayıb. Bu, bir daha onu göstərir ki, beynəlxalq aləm, bütün ölkələr Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz öz prinsipial mövqeyimizi bundan sonra da gücləndirəcəyik. Azərbaycanın həm beynəlxalq müstəvidə, həm də regionda kifayət qədər imkanları var. Bizim iştirakımız olmadan bölgədə heç bir layihə icra edilə bilməz. Ermənistanda bu reallığı nə qədər tez başa düşsələr, münaqişə o qədər də tez həll edilər və bölgəmizdə sülh təmin olunar.

Biz, eyni zamanda, Xocalı soyqırımı ilə bağlı dünyada çox böyük işlər görürük. Ermənilər tərəfindən törədilmiş misli görünməmiş vəhşilik olan Xocalı soyqırımını son illər ərzində 10-dan çox ölkə soyqırımı kimi tanıyıb və bu proses davam etdiriləcəkdir.

Biz güclü ordu qurmuşuq. Orduların gücünü müəyyən edən aparıcı reytinq agentlikləri Azərbaycan Ordusunu 50 güclü ordu sırasında görürlər. Biz bunu bilirik və bizim hərbi gücümüz gündən-günə artır. İki il bundan əvvəl Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir və o torpaqlarda - bizim doğma torpaqlarımızda bu gün Azərbaycan bayrağı dalğalanır. Əminəm ki, gün gələcək və Azərbaycan bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada və Xankəndidə qaldırılacaqdır.

Biz ulu öndərin yolu ilə gedərək güclü iqtisadiyyat qura bilmişik. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. Bizim iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Aparıcı beynəlxalq təşkilatlar, Davos İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görübdür, inkişaf edən ölkələr arasında isə biz 3-cü yerdəyik. Bizim çox böyük iqtisadi resurslarımız var. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 5 dəfə böyükdür. Azərbaycanda yoxsulluqla, işsizliklə mübarizə gözəl nəticələr verir. Bu böyük sosial problemlərin həlli işində böyük uğurlar əldə edilibdir. Biz energetika, nəqliyyat sahələrində tarixi layihələr icra etmişik və onların icrası davam edir. Biz ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı məsələləri tam şəkildə həll etdik. Gələcəkdə Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılması ilə bağlı böyük layihələrin başa çatması gözlənilir.

Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilibdir. “Şimal-Cənub” və “Şərq-Qərb” nəqliyyat dəhlizləri bizim böyük sərmayələrimizlə həyata keçirilir və bu istiqamətdə hələ də həllini tapmamış məsələlər mütləq öz həllini tapacaqdır.

Biz bütün istiqamətlərdə uğurla inkişaf edirik. Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, biz tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik.

Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, biz bundan sonra da həmişə inkişaf və tərəqqi yolu ilə gedəcəyik. Sağ olun.

* * *







Sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş “Qızıl çinar” beynəlxalq mükafatının 2018-ci il üzrə qalibləri elan olundu.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva milli musiqi mədəniyyətimizin inkişafı və təbliği, Azərbaycan dirijorluq məktəbi ənənələrinin yüksək səviyyədə davam etdirilməsi istiqamətində göstərdiyi böyük xidmətlərə görə Azərbaycan Respublikasının xalq artisti, Dövlət mükafatı, “Şöhrət”, “Şərəf” və “İstiqlal” ordenləri laureatı Rauf Abdullayevə “Qızıl çinar” beynəlxalq mükafatını təqdim etdi.

Azərbaycan Respublikasının xalq artisti **Rauf ABDULLAYEV** dedi:

- Mehriban xanım, mən Sizə çox təşəkkür edirəm. Əlbəttə, Sizin işləriniz həddindən çoxdur. Sizin gördüyünüz hər bir iş biz mədəniyyət işçilərinin gözləri qabağındadır. Mən Sizə cansağlığı, işlərinizdə uğurlar diləyirəm. Biz həmişə Sizinləyik. Biz Sizinlə fəxr edirik, çox sağ olun, bir daha təşəkkür edirəm.

* * *

Sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva “Qızıl çinar” beynəlxalq mükafatını Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında xüsusi xidmətlərinə görə Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, Azərbaycan Respublikasının “Dostluq” və “Şöhrət” ordenləri ilə təltif olunmuş Mixail Qusmana təqdim etdi.

TASS informasiya agentliyinin baş direktorunun birinci müavini **Mixail QUSMAN** dedi:

- Hörmətli Prezident, hörmətli Mehriban xanım.

Bu mükafata görə çox sağ olun. Bu, mənim üçün sadəcə mükafat deyil. Bu, əlbəttə ki, doğulduğum bu gözəl torpağa, əhatəsində boya-başa çatdığım ailə ocağıma, ömrümün yarısını bir yerdə yaşadığım istedadlı, parlaq, qonaqpərvər, mehriban, sülhsevər Azərbaycan xalqına mənim sonsuz məhəbbətimin əksi və ifadəsidir.

Ardı 6-cı səh.

# Heydər Əliyevin liderlik keyfiyyətləri və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir

Əvvəli 5-ci səh.

Lakin bu məhəbbət hissi indi mənim Azərbaycan Respublikası ilə xüsusi qürur duymağımla da tamamlandı. Onun heyrətamiz uğurları barədə bu gün İlham Heydər oğlu çox gözəl danışdı. Cənab Prezident, Sizi bu doğma torpağın məğrurluğuna görə təbrik etmək istəyirəm. Çünki Heydər Əliyevin vəsiyyətlərini yerinə yetirən Azərbaycan məhz Sizin rəhbərliyinizlə bu cür heyrətamiz uğurlara nail olub. Mən Sizə Heydər Əliyevin, zənnimcə, ən əsas vəsiyyətlərindən birini yerinə yetirdiyinizə görə də təşəkkür etmək istəyirəm. Bu, Sizin böyük Rusiya, böyük rus xalqı ilə hərtərəfli əlaqələrin və dostluğun, strateji əməkdaşlığın möhkəmləndirilməsi naminə yorulmadan göstərdiyiniz qayğıdır.

Biz bilirik ki, bu gün Azərbaycanda rus dili, əvvəllərdə olduğu kimi, milyonlarla insanın ünsiyyət dilidir. Bu, Sizin və tolerant Azərbaycan xalqının böyük xidmətidir. Mən buna görə Sizə çox təşəkkür edirəm. Deməliyəm ki, Azərbaycana məhəbbət hissini, yəqin hamıdan daha yaxşı 80 il bundan əvvəl unudulmaz Səməd Vurğun özünün ölməz "Azərbaycan" şeirində tərənnüm edib. Biz bu şeiri uşaqlıqdan əzbər bilirik. Lakin abidənin pyedestalında həkk olunmuş dörd sətri bizim hər birimiz dua kimi heç olmasa gündə bir dəfə təkrarlamalıyıq:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən,*
*Anam doğma vətənimsən!*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*





* * *

Daha sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Azərbaycan kino sənətinin inkişafındakı böyük xidmətlərinə görə görkəmli kinorejissor və ssenarist, Azərbaycan Respublikasının xalq artisti, "Şöhrət" və "Şərəf" ordenli Eldar Quliyevə "Qızıl çinar" beynəlxalq mükafatını təqdim etdi.

Xalq artisti **Eldar QULİYEV** dedi:

- Mehriban xanım, mən Sizə və Heydər Əliyev Fonduna dərin minnətdarlığımı bildirirəm. Siz mənim sadə fəaliyyətimə belə yüksək qiymət verdiniz. İndi 3-4 yaş cavan olsaydım deyərdim ki, bəli, bu, avansdır. Amma hər halda bunu avans hesab edirəm. Mən hələ işləyəcəyəm.

Mən nə rəssam, nə bəstəkar, nə də yazıçı deyiləm ki, təkbaşına nə isə yarada bilim. Mən kinorejissoram. Mənimlə birlikdə bir filmin çəkilişində 40-50 nəfər iştirak edir. Onların arasında rəssamlar da, yazıçılar da var. Hesab edirəm ki, bu mükafatda onların da payı var. Çünki onlarla birlikdə yaratdığımız filmlər Azərbaycanın tarixini, onun bugünkü həyatını bütün dünyaya tanıdır. Fəxr edirəm ki, mən də onların sırasındayam.

Çox sağ olun, Mehriban xanım, Sizə bir daha təşəkkür edirəm. Söz verirəm ki, yaradıcılığımı davam etdirəcəyəm.

* * *

Mərasim geniş konsert proqramı ilə davam etdi.

Sonda xatirə şəkli çəkdirildi.

* * *

Mərasimdən sonra Heydər Əliyev Mərkəzinin binasının üzərində videokompozisiya nümayiş etdirildi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin zəngin həyat yolunun səhifələrini vərəqləmək Azərbaycan tarixinin bütöv bir qərinəsinə nəzər salmaq deməkdir. Ulu öndər Heydər Əliyev millətin taleyi üçün misilsiz əhəmiyyət kəsb edən bütün fəaliyyət sahələrini həmişə diqqətdə saxlayıb. Onun ölkəyə rəhbərliyinin hər iki dövründə Azərbaycanın taleyi ilə bağlı olan bütün sahələr dövlət səviyyəsində layiqli dəyərini alıb. Bunu ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə təntənəli mərasimin keçirildiyi Heydər Əliyev Mərkəzinin binasının üzərində nümayiş etdirilən videokompozisiyadan da görmək olurdu.

Bakının simvollarından biri, dünyanın modern memarlıq abidələrindən olan Heydər Əliyev Mərkəzinin binası üzərində nümayiş etdirilən kompozisiya müasir Azərbaycanın memarı və qurucusu, ulu öndər Heydər Əliyevin Azərbaycana bağlılığını, ölkəmizdəki tərəqqini və ümummilli liderə xalq məhəbbətini əks etdirirdi. "Xalq Heydər söyləyəcək" mahnısı ilə müşayiət olunan videoinstalyasiya saat 20-dən gecəyarıyadək davam etdi.

# İnternat məktəbinin sakinləri üçün toy şənliyi təşkil olunub

## Gənc ailəyə yeni mənzilin açarı təqdim edilib





Mayın 9-da Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Təhsil Nazirliyinin 8 nömrəli sanatoriya tipli internat məktəbinin sakinləri üçün "Xəmsə" şadlıq sarayında toy şənliyi keçirilib.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ərəfəsində təşkil olunan iki gəncin izdivacına YAP-ın üzvləri, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri və digər rəsmi şəxslər şahidlik ediblər. AZƏRTAC xəbər verir ki, Fikrət Həsənovla Aytac Səfərovanın nikahı rəsmiləşdirildikdən sonra məktəbin direktoru Pəri Paşayeva hər kəsə təşəkkür edib.

Göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirən təhsil ocağının rəhbəri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın hər zaman kimsəsiz, valideyn himayəsindən məhrum olmuş insanlara xüsusi həssaslıqla yanaşdığını söyləyib.

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov çıxış edərək gənclərə xeyir-dua verib. Onlara gələcək həyatlarında uğurlar arzulayıb. Ulu öndər Heydər Əliyevin qurucusu, banisi olduğu ölkədə heç kimin tək, kimsəsiz olmadığını qeyd edib. Bu toy şənliyini cəmiyyətimizin birliyinin təzahürü adlandıran baş nazirin müavini gənclərə nümunəvi ailələrdən olmağı arzulayıb.

Əli Əhmədov gənc ailəyə yeni mənzilin açarını təqdim edib.

Bəy də öz adından onlara göstərilən qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib. Təhsil nazirinin müavini Firudin Qurbanov gənclərə xoş günlər arzulayıb, Azərbaycanın inkişafı naminə həyata keçirilən proseslərdə yaxından iştirak etmələrini tövsiyə edib və onlara rəhbərlik etdiyi qurum adından xatirə hədiyyəsi verib.

# Müdafiə naziri "Efes-2018" beynəlxalq təlimlərini müşahidə edib

İzmir şəhərində keçirilən "Efes-2018" beynəlxalq təlimlərinin mayın 9-da "Doğanbey" poliqonunda gecə mərhələsi baş tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi geniş tərkibdə nümayəndə heyəti əvvəlcə Türkiyə müdafiə sənayesi sərgisini ziyarət edərək hərbi təyinatlı müasir silah və döyüş texnikaları nümunələri ilə tanış olub.

Sonra Azərbaycan nümayəndə heyəti yüksək səviyyəli müşahidəçilərlə birgə təlimin gecə saatlarında keçirilən mərhələsini izləyib.

* * *

Türkiyədə səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov mayın 10-da İzmirdə keçirilən "Efes-2018" beynəlxalq təlimlərinin yekun mərhələsində iştirak edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan nümayəndə heyəti yüksək səviyyəli müşahidəçilərlə birgə "Doğanbey" poliqonunda yaradılmış Təlim İdarəetmə Mərkəzinin fəaliyyəti ilə tanış olub.

# "Tufan" xidməti fəaliyyətə başlayıb



Aprel ayının 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin baxış keçirdiyi Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində inşa edilmiş S-205 nömrəli "Tufan" tipli sərhəd gözətçi gəmisi may ayının 10-da Xəzər dənizinə endirilmiş və xidməti-döyüş fəaliyyətinə başlamışdır. Xəzər dənizində sərhəd təhlükəsizliyinin təmin edilməsi, neft-qaz hasılatı və daşınması infrastrukturunun etibarlı mühafizəsinin təşkili üzrə mühüm vəzifələri yerinə yetirən Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin xidməti-döyüş imkanlarının gücləndirilməsi böyük əhəmiyyət kəsb edir.

Bu tədbirin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin yaradıcısı, Azərbaycan sərhəd mühafizəsi strategiyasının müəllifi ulu öndər Heydər Əliyevin 95 illik yubileyinə təsadüf etməsi bu günü daha da əlamətdar etmişdir.

Heydər Əliyev dövlətçiliyinə hər zaman sadiq olan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında hər bir döyüş tapşırığını böyük şərəflə yerinə yetirməyə hazır olan Azərbaycan sərhədçiləri tərəfindən yeni sərhəd-gözətçi gəmisinin xidməti-döyüş fəaliyyətinə başlaması böyük ruh yüksəkliyi ilə qarşılanmışdır.

***"Azərbaycan"***

# MDB ölkələrinin Azərbaycandakı səfirləri və səfirliklərin əməkdaşları ulu öndərin xatirəsini yad ediblər

Mayın 9-da MDB-yə üzv ölkələrin Azərbaycandakı səfirləri və səfirliklərin əməkdaşları Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə də gül dəstələri qoyulub.

# "Xaliq Faiqoğlu" MMC-də Heydər Əliyevin xatirəsi böyük ehtiramla anılıb



"Xaliq Faiqoğlu" Məhdud Məsuliyyətli Cəmiyyətində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə tədbir keçirilib. Şirkətin müasir standartlara cavab verən Təmir Mərkəzində təşkil edilmiş tədbirdə MMC-nin rəhbərliyi, dövlət qurumlarının rəsmiləri və ictimaiyyət nümayəndələri iştirak edib. Tədbiri giriş nitqi ilə açan "Xaliq Faiqoğlu" MMC-nin baş direktoru Faiq Seyidov Heydər Əliyevin müasir Azərbaycan dövlətçiliyinin siyasi və iqtisadi əsaslarını yaradan tarixi şəxsiyyət olduğunu, nüfuzlu rəhbər kimi çağdaş tariximizdə əbədiyaşarlıq qazandığını bildirib. O qeyd edib ki, məhz dünya miqyaslı ictimai-siyasi xadim Heydər Əliyevin fəaliyyəti, qətiyyəti, möhkəm siyasi iradəsi nəticəsində müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur: "Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmizdə nəqliyyat və yol tikintisi sahəsində həyata keçirilən quruculuq işləri bu gün onun banisi olduğu müasir Azərbaycan Respublikasının iqtisadi inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. Onun işləyib hazırladığı Azərbaycan Respublikasının iqtisadi inkişaf konsepsiyasında nəqliyyat sektoru xüsusi yer tuturdu. Biz bunu fəaliyyət göstərdiyimiz 16 illik dövrdə hər zaman hiss etmişik. Məhz ulu öndərin qoyub getdiyi xəttin davamıdır ki, bu gün paytaxt Bakıda nəqliyyatın əsas istiqamətlərindən biri olan avtobus sərnişindaşıma sahəsi inkişaf edir və yüksək nəticələr əldə edilir".





Şirkət rəhbəri xüsusilə vurğulayıb ki, dövlət rəhbərliyinin diqqəti və dəstəyi nəticəsində bu gün paytaxt Bakıda müasir sərnişindaşıma xidmətlərinin göstərilməsi istiqamətində işlər görülür və yeni layihələr həyata keçirilir: "Şirkətimiz Bakı şəhərində elektron ödəmə sistemini tətbiq edən ən böyük daşıyıcı qurumdur. Artıq 8 müntəzəm marşrut xətti üzrə BakıKart sistemi tətbiq edilib və bu işləri müvəffəqiyyətlə davam etdiririk. Elektron ödəmə sisteminin tətbiq edildiyi 154 avtobus ən müasir standartlara cavab verir və yüksək keyfiyyətli sərnişindaşıma xidməti göstərir".

Faiq Seyidovun nitqindən sonra şirkət əməkdaşları təqdimat xarakterli çıxışlar edərək son illərdə görülmüş işlər və əldə edilmiş nailiyyətlərdən bəhs ediblər.

Daha sonra Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədov çıxış edərək yüksək keyfiyyətli sərnişindaşıma xidmətinin təşkilinə görə "Xaliq Faiqoğlu" şirkətinin rəhbərliyinə təşəkkür edib. O bildirib ki, müasir standartlara cavab verən avtobusların çoxluğu, keyfiyyətli sərnişindaşımanın tətbiq edilməsi Bakı şəhərinin nəqliyyat yükünün azaldılmasına, tıxacların qarşısının alınmasına böyük fayda verə bilər. Yol polisi rəsmisi sürücülərin də bəzi məsələlərdə diqqətli olmasını, sərnişinlərdə yol-nəqliyyat mədəniyyətinin formalaşdırılmasını xahiş edib.

Bundan başqa, tədbirdə iştirak edən ekspertlər öz təkliflərini və Bakı şəhərindəki sərnişindaşıma fəaliyyəti ilə bağlı görmək istədikləri yenilikləri çatdırıblar. Nəqliyyat sahəsində tanınmış ekspertlər Ərşad Hüseynov, Tural Yusifov, Hüseyn Abdullayev, Elməddin Muradlı və digərlərinin iştirakı ilə təşkil edilən ümumi paneldə maraqlı diskussiya keçirilib. Müzakirələr zamanı müxtəlif təkliflər irəli sürülüb, gələcək planlardan söz açılıb. Həmçinin ekspertlər sürücülərə tövsiyələrini veriblər, bu tipli tədbirlərin tez-tez keçirilməsinin çox faydalı olduğunu vurğulayıblar.

***"Azərbaycan"***

# “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” tarixi-sənədli sərgisinin iştirakçılarına

Əziz dostlar!

Əlamətdar tarixə - Azərbaycanın ümummilli liderinin anadan olmasının 95 illiyinə həsr edilmiş “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” tarixi-sənədli sərgisinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Heydər Əliyev təkcə postsovet məkanında deyil, bütün dünyada yüksək nüfuz qazanmış görkəmli dövlət xadimi və siyasi xadimdir. Uzun illər ərzində respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri, Azərbaycan SSR-in rəhbəri, daha sonra SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrində qazandığı zəngin dövlət idarəçiliyi təcrübəsi və yüksək təşkilatçılıq qabiliyyəti ona ən mürəkkəb bir dövrdə müstəqil Azərbaycana başçılıq etmək, ölkəni dərin böhran vəziyyətindən davamlı inkişaf yoluna çıxarmaq imkanı verdi.

Müasir mərhələdə strateji səciyyə daşıyan Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsində Heydər Əliyevin xüsusi xidməti olub. Müstəqillik illərində dövlətlərimiz əvvəlki nəsillərin miras qoyduğu mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq ənənələrini nəinki qoruyub saxlamağa, həm də artırmağa nail olublar.

Əlamətdar haldır ki, Bakıda keçirilən sərgidə həm Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü görməyə, həm də onun irsi ilə təmasda olmağa imkan verən çoxsaylı arxiv sənədləri və fotoşəkillər təqdim edilir. Ürəkdən şadam ki, əlamətdar hadisə münasibətilə hazırlanmış nəfis kataloqda əsası ümummilli lider tərəfindən qoyulmuş siyasi kursun varisliyi aşkar izlənilir. Ümidvaram ki, bu nəşr əksər kitabxanaların fondlarında layiqli yer tutacaq.

Layihənin təşəbbüskarı olan Rusiya tərəfinə dərin minnətdarlığımı bildirmək, habelə hər iki ölkənin tarixçilərinə və arxiv mütəxəssislərinə təşəkkür etmək istərdim. Əminəm ki, sərgi xalqlarımız arasında dostluğun möhkəmlənməsinə öz töhfəsini verəcək.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 aprel 2018-ci il*

# “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” tarixi-sənədli sərgisinin iştirakçılarına və qonaqlarına

Əziz dostlar!

“Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” tarixi-sənədli sərgisinin açılışı münasibətilə Sizi ürəkdən salamlayıram. Bu sərgi görkəmli şəxsiyyətin, öz vətəninin sədaqətli oğlunun, həqiqi vətənpərvərin anadan olmasının 95 illiyinə həsr edilib.

Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi, ən mürəkkəb məsələlərin mahiyyətinə varmaq bacarığı, böyük təşkilatçılıq istedadı ona həmvətənləri arasında və xaricdə yüksək nüfuz qazandırıb. Son dərəcə mürəkkəb tarixi dövrdə müstəqil Azərbaycana rəhbərlik edən Heydər Əliyev Azərbaycan cəmiyyətinin birləşdirilməsi üçün çox işlər görüb, xalqın həqiqi liderinə çevrilib.

Qeyd etməliyəm ki, Heydər Əliyev Azərbaycanın uğurlu inkişafının mühüm şərtlərindən birini Rusiya ilə dostluq, mehriban qonşuluq əlaqələri yaradılmasında, qarşılıqlı faydalı əməkdaşlığı və ölkələrimiz arasında konstruktiv tərəfdaşlığı möhkəmlətməkdə görürdü. Sevindirici haldır ki, Azərbaycan Respublikasının indiki Prezidenti İlham Əliyev bu kursu ləyaqətlə davam etdirir.

Bu genişmiqyaslı sərgi tarixçilərin, arxiv mütəxəssislərinin və dövlət nümayəndələrinin birgə səylərinin nəticəsidir. Sərginin hazırlanmasında iştirak edənlərin hamısına təşəkkürümü bildirmək, ekspozisiyanın ziyarətçilərinə isə parlaq, unudulmaz təəssüratlar arzu etmək istərdim.

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

# Heydər Əliyev Mərkəzində “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” tarixi-sənədli sərgisinin açılış mərasimi olub












Mayın 10-da Heydər Əliyev Mərkəzində “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” tarixi-sənədli sərgisinin açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Rusiya Federasiyası Prezidentinin Administrasiyası və Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil olunan sərgidə Azərbaycanın və Rusiyanın ictimai-siyasi xadimləri, ziyalıları iştirak ediblər.

Rusiya ilə dostluq münasibətlərinin qurulmasında, iki ölkə arasında strateji tərəfdaşlığın əsaslarının qoyulmasında ulu öndər Heydər Əliyev mühüm rol oynayıb. Buna görə də Heydər Əliyev Mərkəzində əlamətdar yubileyə - Azərbaycan xalqının ümummilli liderinin anadan olmasının 95 illiyinə həsr edilən “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” mövzusunda tarixi-sənədli sərginin açılması təsadüfi deyil. Bununla bağlı keçirilən mərasimdə Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov unikal sərginin təşkil edildiyini bildirərək, Mərkəzin və Heydər Əliyev Fondunun Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsinə yönələn layihələri hər zaman dəstəklədiyini diqqətə çatdırdı.

Anar Ələkbərov Prezident İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və fondun vitse-prezidenti Leyla Əliyevanın bu istiqamətdə gördüyü işləri qeyd etdi. O, ulu öndərin irsinin araşdırılması və gələcək nəsillərə çatdırılması ilə məşğul olan Heydər Əliyev Mərkəzində təşkil edilən sərgilər və tədbirlər sırasında Rusiya mədəniyyət və incəsənət xadimlərinin işlərinin də geniş yer aldığını vurğuladı və sərginin təşkilatçılarına minnətdarlığını bildirdi.

Rusiya Federasiyası Prezidentinin xarici ölkələrlə regionlararası və mədəni əlaqələr idarəsinin rəisi Vladimir Çernov Rusiya Prezidenti Vladimir Putinin tədbir iştirakçılarına müraciətini oxudu *(Müraciət qəzetin bugünkü nömrəsində dərc olunur).*

Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciətini Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov oxudu *(Müraciət qəzetin bugünkü nömrəsində dərc olunur).*

Tədbirdə çıxış edən Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədr müavini İlyas Umaxanov Heydər Əliyevi Azərbaycanın inkişafında unikal rol oynayan əfsanəvi siyasətçi kimi səciyyələndirdi. Bu sərginin Azərbaycan-Rusiya münasibətlərinin strateji tərəfdaşlığını nümayiş etdirdiyini deyən rusiyalı qonaq ölkələrimiz arasında əlaqələrin qarşılıqlı hörmətə, mehriban qonşuluğa, dostluğa əsaslandığını qeyd etdi. Bildirdi ki, indi əsas vəzifə bu estafeti gələcək nəsillərə ötürməkdir. “Uğurlu strateji tərəfdaşlığın vacib rəhni prezident seçkilərində İlham Əliyevin inamlı qələbəsidir” deyən İlyas Umaxanov ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından danışdı. Onu da diqqətə çatdırdı ki, bu gün Heydər Əliyev Mərkəzində açılan sərgi Azərbaycan xalqının və onun liderinin tarixini daha yaxşı öyrənməyə imkan verəcək.

Rusiya Federasiyası xarici işlər nazirinin müavini Qriqori Karasin sərginin görkəmli şəxsiyyətə həsr edildiyini, Heydər Əliyevin nəhəng cəsarətə və təcrübəyə malik olduğunu, onun Azərbaycanın inkişafı üçün taleyüklü qərarlar qəbul etdiyini bildirdi. İki dəfə Azərbaycana rəhbərlik edən ulu öndərin fəaliyyəti barədə danışan Rusiyanın xarici siyasət idarəsinin rəsmisi dedi ki, Heydər Əliyevi insanlara və işinə olan maraq fərqləndirirdi, o, nəhəng potensiala malik şəxsiyyət idi. Qriqori Karasin qeyd etdi ki, ulu öndər Rusiya ilə münasibətlərə xüsusi əhəmiyyət verirdi. Ümummilli liderin siyasi kursunu bu gün Prezident İlham Əliyev davam etdirir. Rusiya Federasiyası xarici işlər nazirinin müavini vurğuladı ki, məhz buna görə də Rusiya-Azərbaycan münasibətlərinin gələcək inkişafına nikbinliklə baxır və əmindir ki, bu münasibətlər ölkələrimizin və xalqlarımızın rifahı naminə inkişaf edəcək.

Sonra sərginin açılışı oldu. Əlamətdar tarixə - Azərbaycan xalqının ümummilli liderinin anadan olmasının 95 illiyinə həsr olunan “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” Azərbaycan-Rusiya tarixi-sənədli sərgisi Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Rusiya Federasiyası Prezidentinin Administrasiyası və Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil edilib. Sərgi altı bölmədən ibarətdir. Hər bir bölmə ulu öndərin həyatının müəyyən mərhələsinə həsr edilib. Sərgidə Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən 300-dən çox eksponat - fotolar, sənədlər və videomateriallar nümayiş olunur. Ümummilli liderin siyasi müdrikliyi və uzaqgörənliyi, ən mürəkkəb məsələlərin mahiyyətinə varmaq bacarığı, böyük təşkilatçılıq istedadı ona həmvətənləri arasında və xaricdə yüksək nüfuz qazandırıb. Son dərəcə mürəkkəb tarixi dövrdə müstəqil Azərbaycana rəhbərlik edən Heydər Əliyev Azərbaycan cəmiyyətinin birləşdirilməsi üçün çox işlər görüb, xalqın həqiqi liderinə çevrilib. Heydər Əliyev Azərbaycanın uğurlu inkişafının mühüm şərtlərindən birini Rusiya ilə dostluq, mehriban qonşuluq əlaqələri yaradılmasında, qarşılıqlı faydalı əməkdaşlığı və ölkələrimiz arasında konstruktiv tərəfdaşlığı möhkəmlətməkdə görürdü. Dövlətlərimiz çoxsaylı nəsillərin topladığı mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq ənənələrini müstəqillik illərində nəinki qoruyub saxlamağa, həm də artırmağa nail olublar. Bu genişmiqyaslı sərgi tarixçilərin, arxiv mütəxəssislərinin və dövlət nümayəndələrinin birgə səylərinin nəticəsidir. Əlamətdar haldır ki, Bakıda keçirilən sərgidə həm Heydər Əliyev şəxsiyyətinin çoxşaxəliliyini görmək, eyni zamanda, onun irsi ilə təmasda olmaq imkanı verən çoxsaylı arxiv sənədləri və fotoşəkillər təqdim edilir. Bu əlamətdar hadisə münasibətilə hazırlanan kataloqda əsası ümummilli lider tərəfindən qoyulan siyasi kursun varisliyi aydın görünür.

# İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Abdullayev Kazım Ənvər oğlu
Abdullayeva Xurşid Lütfəli qızı
Abdurahmanov Yusif Fikrət oğlu
Adıgözəlov Yalçın Vasif oğlu
Ağasoy Həsən Vəliqulu oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Allahverdiyeva Naibə Siyavuş qızı
Aslanova Elmira Ramazanovna
Atakişiyeva Mətanət Ağazahir qızı
Babayev İlqar Hüseyn oğlu
Babayeva İnarə Əhməd qızı
Bağırov Viktor Cəmiloviç
Baliyeva Natalya Qennadiyevna
Bayramov Təyyar Allahverdi oğlu
Bulax Svetlana Mixaylovna
Cahangirov Əlif Çingiz oğlu
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Mircavad Mirqəfər oğlu
Cəfərov Novruz Adil oğlu
Cəfərov Samir Qədir oğlu
Dünyamalıyev Rəhman Musa oğlu
Eldarova Nəsibə Novruz qızı
Eyyubov Musa Eyyub oğlu
Əfəndiyeva-Xəlilova İlahə Əhsan qızı
Əhmədli Bəhruz Vaqif oğlu
Əhmədov Çingiz Əli Əşrəf oğlu
Əhmədov Elnur Oruc oğlu
Əhmədov İlkin Qənbər oğlu
Ələkbərzadə Mehriban Zaur qızı
Əliyev Əyyub Pənah oğlu
Əliyev Fərid Fərhad oğlu
Əliyev Novruz Yaqub oğlu
Əliyev Rahib Seyidağa oğlu
Əliyev Sərvər Bəhlul oğlu
Əliyev Vahid Əsgər oğlu
Əliyev Vaqif Səfər oğlu
Əliyev Yusif Məmiş oğlu
Əliyeva Böyükxanım Həsənbala qızı
Əliyeva Dilarə Asif qızı
Əliyeva Gülüstan Həsən qızı
Əlizadə Əkbər Müzəffər oğlu
Əmirov Cəmil Fikrət oğlu
Əsədova Məleykə Əlifağa qızı
Əsədova Səbinə Çingizovna
Əsədullayev Toğrul Mirnazim oğlu
Əsgərov Əli Rəhim oğlu
Əzizov Əzizağa Ağayar oğlu
Fətəliyev Zakir Məhərrəm oğlu
Göyçayev Teymur Ənvər oğlu
Gözəlova İradə Vaqif qızı
Hacıyev Əli Əli Yusif oğlu
Hacıyev İlqar Xəlil oğlu
Hacıyeva Fidan Hacıağa qızı
Hacıyeva Sevil İnşalla qızı
Heybətov Anar Mithət oğlu
Heydərova Çinarə Yaşar qızı
Həmidov Əjdər Qüdrət oğlu
Həsənquliyev Kazım Feyruz oğlu
Həşimov Elçin Ləzgi oğlu
Həşimova Növrəstə Xanəli qızı
Həşimzadə Xanlar Allahverdi oğlu
Hüseynli Anar Vaqif oğlu
Hüseynov Füzuli İsmət oğlu
Hüseynov Şövqi Ərəstun oğlu
Hüseynova Kamilla Fikrət qızı
Hüseynova Kəmalə Müzəffər qızı
Hüseynova Laləzar Ramil qızı
Xanızadə Bəxtiyar Oqtay oğlu
Xəlilzadə Rüfət Eldar oğlu
İbayev Səbuhi Tahir oğlu
İbrahimov Fuad Natiq oğlu
İbrahimova Nigar Rəfael qızı
İbrahimova Şəhla İbrahim qızı
İmanova Gülbacı Əliəkbər qızı
İmanova Simarə Cəmaləddin qızı
İslamzadə Akif Qədir oğlu
İsmayılov Qurban İbrahim oğlu
İsmayılov Rauf Fəxrəddin oğlu
Kazımov Nicat Mirəziz oğlu
Kərimov Fəxrəddin Nuri oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Elmira Nəsir qızı
Kərimova Qərinə Rəhim qızı
Kərimova Nərgiz Faiq qızı
Qasımov Yusif Əli oğlu
Qasımova Fərqanə Alim qızı
Qəmbərov Salman Hüseyn oğlu
Quliyev Elxan Əlibala oğlu
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyev Qabil Əzizulla oğlu
Quliyeva Aynurə Arif qızı
Quliyeva Səidə Əbülfəz qızı
Quliyeva Şəlalə Şahvələd qızı
Qurbanov Oruc İzzət oğlu
Qurbanova Gülzar Qurban qızı
Qurbanova Pərvanə Yaqub qızı
Lobaçov Yuri Nikolayeviç
Məhərrəmov Firudin Əliməmməd oğlu
Məmmədəliyev Vamiq Məmmədəli oğlu
Məmmədxan Ucal İsa oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədov Sirus Arif oğlu
Məmmədova Fəridə Kamal qızı
Məsimov Qurban Abdulla oğlu
Məstanov Vaqif Teyyuboviç
Miltıx Aleksey Leonidoviç
Mirişli Nazim Ramiz oğlu
Mirqasımova Ayan Oqtay qızı
Mirzəhəsənov Hüseyn-Səfa Qvaməddin oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu
Mirzəyev Rafiq İsmayıl oğlu
Musayeva Səmayə Məmməd qızı
Musayeva Şükufə İmran qızı
Mustafayev Arzu Əhməd oğlu
Mustafayeva Laləzar Bəşir qızı
Mütəllimova Firəngiz Bəhər qızı
Nərimanova Zemfira Əli qızı
Nəzərov İlham İslam oğlu
Novruzov Əfsər Dilavər oğlu
Novruzova Nübar Qulu qızı
Növrəsli Şahin Növrəs oğlu
Nurzadə Əli Qayıb oğlu
Orucova Nahidə Mülük qızı
Osmanov Bəhram Məcid oğlu
Osmanov Fuad Tacəddin oğlu
Paşazadə Sahib Ağaverdi oğlu
Piriyev İvtixar Fəhrat oğlu
Poladov Əkrəm Nicat oğlu
Rəhimov Vaqif Çərkəz oğlu
Rəhmanov Rəhman Tofiq oğlu
Rüstəmov Elşən Mərdan oğlu
Rzayev-Sarabski İsfar Aydın oğlu
Sabayev Andrey Yuryeviç
Salahov Əbülfət Yusif oğlu
Salmanov Nicat Fərhad oğlu
Seyidov İxtiyar Mircəfər oğlu
Seyidov Uran Seyidmusa oğlu
Səlimli Mirbala Seyidəsgər oğlu
Səmədov Şükür Hacıbala oğlu
Spitsina Yelena Eduardovna
Şarovskaya Natalya Yuryevna
Şərifov Munis Məhəmməd İsmayıl oğlu
Şirinov Aslan Adil oğlu
Tağızadə İrana Tofiq qızı
Yaqubov Şıxı Miriş oğlu
Yaqubova Ella İsmayıl qızı
Zeynalov Azər Zeynalabdin oğlu
Zülfüqarov Cahangir Oqtay oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. “İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 1 may tarixli 2830 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 266) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 may 2018-ci il*

# ABŞ-ın Nevada ştatının qubernatoru Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı bəyannamə imzalayıb

ABŞ-ın Nevada ştatının qubernatoru Brayan Sandoval Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı təbrik bəyannaməsi imzalayıb.

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğuna göndərilmiş təbrik bəyannaməsində qubernator bu tarixi yubiley münasibətilə Nevada ştatı adından Azərbaycanı təbrik edir və ən xoş arzularını çatdırır. Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan məlumat verilib.

Qeyd edək ki, bu, Nevada ştatının qubernatoru B.Sandoval tərəfindən Azərbaycana dair imzalanmış ilk bəyannamə deyil. Belə ki, qubernator 2017-ci ildə Xocalı soyqırımı ilə də bağlı bəyannamə imzalayaraq bu faciəni pisləmişdi. Respublikaçılar Partiyasına mənsub olan qubernator B.Sandoval 2011-ci ildə keçirilmiş seçkilərdə qalib gələrək bu vəzifəyə seçilib.

# Mayın 28-i ABŞ-ın Meyn ştatının Portlend şəhərində Azərbaycan Milli Günü elan olunub

Amerikanın Meyn ştatının ən böyük şəhəri və Kamberlend dairəsinin inzibati mərkəzi olan Portlend şəhərinin meri İtan Strimlinq (Ethan Strimling) Azərbaycan Demokratik Respublikasının 100-cü ildönümü ilə əlaqədar rəsmi bəyannamə imzalayıb.

AZƏRTAC xəbər verir ki, sənəddə 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman dünyasında ilk demokratik respublika kimi tarixə düşdüyü və bütün vətəndaşlarına bərabər hüquqlar vermiş ilk dövlətlərdən biri olduğu diqqətə çatdırılır. Həmçinin bu respublikanın həmin dövrdə dünyanın bir çox demokratik dövlətləri, o cümlədən ABŞ tərəfindən tanındığı vurğulanır.

Eyni zamanda, sənəddə Azərbaycan Xalq Cümhuriyyətinin öz müstəqilliyi uğrunda mübarizə aparmasına baxmayaraq, 1920-ci ildə keçmiş sovetlər birliyinin tərkibinə daxil edildiyi və 1991-ci ildə öz müstəqilliyini bərpa etdiyi vurğulanır.

Qeyd edilir ki, Azərbaycan son 25 il ərzində öz suverenliyini və müstəqilliyini möhkəmləndirib və hazırda Xəzər regionunda ABŞ-ın müttəfiqi və strateji tərəfdaşıdır.

Həmçinin bəyannamədə bu il mayın 28-də ABŞ-da və dünyanın digər yerlərində yaşayan azərbaycanlılar tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd ediləcəyi və öz əcdadlarının Qafqaz, Mərkəzi Asiya və Orta Şərqdə demokratiyanın yayılmasına töhfələrinin xatırlanacağı bildirilir.

Sonda şəhərin meri İtan Strimlinq və şəhər şurasının üzvlərinin imzaladıqları bəyannamədə 2018-ci il mayın 28-i Azərbaycan Milli Günü elan edilib.

# Milli Məclisdə ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə bağlı xüsusi iclas keçirilib

Mayın 10-da Milli Məclisin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar xüsusi iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan sədr Oqtay Əsədov ulu öndərin Azərbaycan xalqının dövlətçilik tarixində və taleyində göstərdiyi misilsiz xidmətlərdən bəhs edən məruzə ilə çıxış edib.

Spiker deyib ki, filosoflardan birinin dediyinə görə, xalqın yaradıcılıq qüvvəsinin əsasını böyük şəxsiyyətlərin fəaliyyəti təşkil edir. Hər tarixi inkişaf dövrü öz görkəmli şəxsiyyətlərini yaradır. Amma elə şəxsiyyətlər də var ki, zamanın hüdudlarını aşaraq yaşadıqları dövrün simasını özləri müəyyən edirlər. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti vətəninin və millətinin taleyində müstəsna rol oynayan nəhəng şəxsiyyətin zamanın fövqünə yüksəlməsinə parlaq bir nümunədir. Yalnız onun sayəsində xalqımız əvvəlcə siyasi və dövlət müstəqilliyinin möhkəm təməlini yaradıb, daha sonra isə bu təməl üzərində qurulan müstəqil dövlətini qoruyub saxlaya bilib. Heydər Əliyev XX əsrin sonlarında və XXI əsrin əvvəllərində dövlətimizin bütün sahələrdə əldə etdiyi nailiyyətlərin ilhamvericisi və təşkilatçısı olub. 1960-cı illərin axırlarında və 1990-cı illərin əvvəllərində ulu öndərin hakimiyyətə hər iki gəlişi ölkəmizin və xalqımızın çox ağır sınaqlara çəkildiyi dövrlərə təsadüf edib. Hər dəfə də Heydər Əliyev ona bəslənən ümidləri doğruldaraq əsl milli lider olduğunu sübuta yetirib. 1969-1982-ci illərdə ulu öndərin dahiyanə idarəçilik qabiliyyəti və strateji təfəkkürü sayəsində Azərbaycan, sözün həqiqi mənasında, əsrə bərabər inkişaf yolu keçdi. Sovet İttifaqının ən geridə qalan respublikalarından biri olan Azərbaycan qısa müddət ərzində tənəzzüldən çıxaraq yüksəliş yoluna qədəm qoydu. O, Azərbaycanın müstəqillik yollarında qarşılaşacağı problemləri qabaqcadan görür və həll edirdi. Ulu öndər bütün dövlət hakimiyyəti orqanlarının, o cümlədən parlamentin işini xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşmasına yönəltdi.





Partiya lideri olmaqla yanaşı, o, dəfələrlə SSRİ və Azərbaycan SSR Ali sovetlərinin deputatı oldu. Onun təşəbbüsü ilə SSRİ rəhbərliyi Azərbaycanın iqtisadi inkişafı üçün olduqca böyük əhəmiyyətə malik bir neçə mühüm qərar qəbul etdi. Heydər Əliyevin rəhbərliyi ilə Konstitusiya Komissiyasının hazırladığı və 1978-ci ilin aprelində qəbul edilmiş Azərbaycan SSR-in yeni Konstitusiyası mövcud olan məhdud imkanlar daxilində xalqın mənəvi sərvətlərinin qorunması və inkişaf etdirilməsi üçün hüquqi əsasları genişləndirdi. Azərbaycan dili respublikada dövlət dili statusu aldı. Bir çox vacib sahələrdə, o cümlədən hərbi sahədə milli kadr potensialının yaradılması istiqamətində zəruri tədbirlər görüldü. Azərbaycanda orta pillə hərbi kadrlar hazırlayan tədris müəssisəsi - Cəmşid Naxçıvanski adına hərbi məktəb yaradıldı.

Hərbi məktəblərə yerli əhali nümayəndələrinin qəbulu artırıldı. Minlərlə azərbaycanlı gənc Rusiyanın, digər respublikaların hərbi məktəblərinə təhsil almağa göndərildi. O dövrdə hazırlanan kadrlar sonralar ordumuzun özəyini təşkil etdilər. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər siyasi, iqtisadi, mədəni yüksəliş dövrü kimi tariximizə daxil olaraq xalqımızın milli mənlik şüurunun oyanışına güclü təkan verdi. Məhz həmin dövrdə imperiya tərkibində olmağımıza baxmayaraq, Azərbaycanın gələcək siyasi və dövlət müstəqilliyi üçün əsaslı zəmin və möhkəm bünövrə yaradıldı. 1982-1987-ci illərdə Sov.İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən Heydər Əliyev Azərbaycanın ardıcıl inkişafı üçün əlindən gələni edirdi. Onun Moskvada hakimiyyətin ən yüksək zirvəsində olması Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan qüvvələrin qarşısında ən böyük maneə idi.

1987-ci ilin oktyabr ayında Heydər Əliyevin Sovetlər Birliyinin rəhbərliyində yüksək vəzifələrdən uzaqlaşdırılması ilə Azərbaycanın faciələrinin əsası qoyuldu. Məhz bu istefa Azərbaycana qarşı hazırlanmış məkrli planların həyata keçirilməsi yolunda ilk addım oldu.

“Heydər Əliyevin Azərbaycana ilk rəhbərliyi dövrünün təhlili göstərir ki, etibarlı və səriştəli siyasi rəhbərlik amili cəmiyyətin və dövlətin inkişafında müstəsna və həlledici rol oynayır. Bu həqiqəti xalqımız 1988-1993-cü illərin faciəli hadisələri zamanı bir daha yəqin edib. Respublika rəhbərliyində bir-birini əvəz edən şəxslərin səriştəsizliyi, müxtəlif qüvvələrin hakimiyyət uğrunda mübarizəsi, hərc-mərclik, xaos Azərbaycanı uçurumun bir addımlığına gətirib çıxarmışdı. O vaxt çoxları inanmırdı ki, Azərbaycan bu qədər böyük təhlükələrdən qurtula biləcək və müstəqilliyini qoruyub saxlayacaq. Amma tarixin şahid olduğu vətəndaş fədakarlığı, siyasətçi hünəri Azərbaycan üçün yazılmış ssenarilərin həyata keçməsinə imkan vermədi”, - deyə Milli Məclisin sədri vurğulayıb.

Sədr çıxışında bildirib ki, ən böyük milli sərvət olan dövlət müstəqilliyini xalqımız XX əsrdə iki dəfə əldə edib. 1918-1920-ci illərdə mövcud olmuş, xalqımızın dövlətçilik şüurunun inkişafında müstəsna rol oynamış Azərbaycan Xalq Cümhuriyyətini qoruyub saxlamaq mümkün olmasa da, əsrin sonlarına yaxın nail olduğumuz dövlət müstəqilliyi məhz Heydər Əliyev dühasının köməyi ilə xilas edilib. Azərbaycanın ikinci dövlət müstəqilliyi 1991-ci il oktyabrın 18-də elan olunsa da, onun əsl tarixi məhz 1993-cü il iyunun 15-dən başlanır. Tamamilə məntiqlidir ki, sonralar ölkənin ali qanunvericilik orqanı xalqın arzu və istəklərini nəzərə alaraq Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü Milli Qurtuluş Günü kimi dəyərləndirib. Qeyd etmək lazımdır ki, Heydər Əliyevin böyük siyasətə qayıdışı onun Azərbaycan Ali Sovetinin sədri seçilməsi ilə başlanıb. Ulu öndər Prezident seçilənədək dörd ay parlamentə rəhbərlik edib. Xilaskarlıq missiyasını həyata keçirmək yolunda onun ilk addımları məhz bu dövrdə və bu binada başlanıb.

Heydər Əliyevin Azərbaycan parlamentinin sədri seçilməsi ölkəmizdə qanunvericilik orqanının nüfuzunu yüksək səviyyəyə qaldırdı. Müasir peşəkar parlamentin formalaşması istiqamətləri müəyyən edildi. Milli Məclis müzakirələrin açıq və demokratik şəraitdə aparıldığı real hakimiyyət orqanına çevrildi. Ölkənin ictimai-siyasi həyatı üçün çox böyük əhəmiyyətə malik bir sıra qərarlar qəbul edildi. Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti xalqa sədaqətlə xidmət etmək, onun yolunda hər cür fədakarlığa hazır olmaq nümunəsidir. 1993-cü ildən 2003-cü ilədək olan on il ərzində onun həyata keçirdiyi nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir.

Ulu öndərin xilaskarlıq missiyasında ilk addımı ölkəni dağılmaq və parçalanmaq həddinə gətirib çıxarmış dövlət və hakimiyyət böhranını aradan qaldırmaq, vətəndaş müharibəsi təhlükəsinin qarşısını almaq oldu. Torpaqlarımızı müdafiə etməyə qadir olan milli ordunun yaradılması ən mühüm vəzifələrdən biri kimi irəli sürüldü. Bu istiqamətdə həyata keçirilən qəti tədbirlər döyüş əməliyyatları zonasında dönüşün əsasını qoydu. Milli Ordumuzdan aldığı qüvvətli zərbələr Ermənistan Respublikasını Azərbaycanla silah gücünə danışmağın mümkün olmadığına inandırdı. Cəbhə xəttində atəşkəs elan olundu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasına dair danışıqlara başlandı. Ölkə daxilində möhkəm ictimai-siyasi sabitlik təmin edildi. Bu isə Azərbaycan dövlətinin yeni neft strategiyasının həyata keçirilməsinə imkan yaratdı. Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsinə dair xarici neft şirkətləri ilə onlarca saziş imzalandı. Azərbaycan iqtisadiyyatına milyardlarla dollar məbləğində investisiya cəlb edildi. Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişinə başlandı. Neft sənayesinin dirçəlməsi iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına da şərait yaratdı. Bazar iqtisadiyyatı prinsipləri tətbiq olundu, iqtisadi islahatlar, o cümlədən torpaq islahatı, özəlləşdirmə aparıldı. Həyatın bütün sahələrində tənəzzülə son qoyuldu, ölkəmiz ardıcıl inkişaf yoluna çıxdı. Azərbaycan mötəbər beynəlxalq təşkilatların bərabər hüquqlu üzvü oldu, dünyanın əksər dövlətləri ilə dostluq münasibətləri quruldu. Ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, qanunun aliliyinə təminat verən yeni Konstitusiya qəbul edildi, demokratik şəraitdə bir neçə dəfə Prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Ölkədə əsaslı siyasi, hüquqi və sosial islahatlara başlanıldı. Şərq və müsəlman aləmində ilk dəfə olaraq ölüm cəzasının ləğv edilməsi və bir sıra digər tədbirlər dövlətimizin beynəlxalq aləmdə nüfuzunu xeyli artırdı. Cəmiyyətdə siyasi plüralizm üçün real şərait təmin edildi. Ən müxtəlif baxışları təmsil edən siyasi partiyaların fəaliyyətinə əlverişli şərait yaradıldı. Heydər Əliyevin banisi olduğu Yeni Azərbaycan Partiyası hakim partiya və cəmiyyətin aparıcı siyasi qüvvəsi oldu. Milli-mənəvi dəyərlərimizin qorunması, mədəniyyətin, ədəbiyyatın və incəsənətin inkişafı üçün lazımi tədbirlər görüldü. Milli dövlətçilik ideologiyası və idarəçilik fəlsəfəsi formalaşdırıldı. Azərbaycançılıq, müstəqillik və dövlətçilik amalları naminə milli həmrəyliyin yaradılması istiqamətində əməli addımlar atıldı. Dünyanın müxtəlif qitələrində yaşayan soydaşlarımızla əlaqələrin inkişaf etdirilməsi, diaspor təşkilatlarının yaranmasına kömək göstərilməsi dövlət siyasətinin tərkib hissəsinə çevrildi. Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi ənənə halını aldı. Bu möhtəşəm işlərin reallaşdırılmasında Milli Məclis həmişə ulu öndərin yanında olub, onun uzaqgörən daxili və xarici siyasətini fəal surətdə dəstəkləyib.

“Heydər Əliyev dövlət başçısı olduğu dövrdə də parlamentə böyük diqqət və qayğı göstərib. 1995-ci il noyabrın 24-də ulu öndər birinci çağırış Milli Məclisin ilk iclasında iştirak edib, qanunvericilik orqanının üzvlərinə öz xeyir-duasını verib. Sonrakı dövrdə də ulu öndər parlamentin müxtəlif məsələlərə həsr olunan iclaslarında iştirak və çıxış edib. Azərbaycanda yeni siyasi və hüquqi sistemin yaradılması məqsədilə Milli Məclis ulu öndərin təşəbbüsü ilə bir çox mühüm qanunvericilik aktları qəbul edib. Burada ilk növbədə yeni məcəllələrin - Mülki, Mülki-Prosessual, Cinayət, Cinayət-Prosessual, Seçki, Əmək, Ailə və digər məcəllələrin qəbulu xüsusi qeyd edilməlidir. Ümumiyyətlə, ölkədə əsaslı islahatların qanunvericilik mexanizminin yaradılmasına və təkmilləşdirilməsinə yönələn 1500-ə qədər qanun, qərar və digər aktlar ulu öndərin imzası ilə parlamentə təqdim edilib və geniş müzakirələrdən sonra qəbul olunub. Beləliklə, Azərbaycanın demokratik yolla ardıcıl inkişafı, hüquqi dövlət quruculuğu üçün bütün təminatlar yaradılıb”, - deyə Milli Məclisin Sədri qeyd edib.

Oqtay Əsədov diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndərin Azərbaycan xalqı və dövləti qarşısında göstərdiyi xidmətlər barədə belə deyib: “1993-2003-cü illər ərzində Azərbaycanın dövlətçiliyi quruldu. Azərbaycanın inkişaf strategiyası müəyyən olundu. Bütün ölkələrlə xarici əlaqələrimiz qarşılıqlı hörmət və maraqlar əsasında qurulubdur və bu gün də bu belədir. 1993-cü ildən başlanmış və bugünə qədər davam edən iqtisadi və siyasi islahatlar ölkəmizin dünya birliyinə layiqli üzv kimi daxil edilməsində çox mühüm rol oynadı. Azərbaycanda güclü sosial siyasətin əsasları da məhz o illərdə qoyulubdur. Ona görə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri unudulmazdır, əvəzolunmazdır və onlar tarixi əhəmiyyət kəsb edir”. Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti bu gün ciddi tədqiqatların mövzusudur. Ulu öndərin zəngin irsinin öyrənilməsində və təbliğində Azərbaycan parlamenti də yaxından iştirak edir. Milli Məclisdə Heydər Əliyevin adını daşıyan xatirə zalı fəaliyyət göstərir. İndiyədək parlamentdə ulu öndərin fəaliyyətinin müxtəlif sahələrindən bəhs edən bir neçə kitab hazırlanıb nəşr edilib. Heydər Əliyevin yaratdığı möhkəm təməl üzərində inkişaf edən Azərbaycan Respublikası bu gün geniş bir bölgədə söz sahibi olan güclü bir dövlətdir. Ölkəmizin getdikcə artan imkanları qarşıya qoyulan hər bir mürəkkəb vəzifəni uğurla yerinə yetirməyə imkan yaradır. Azərbaycan Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə sıx bağlayan nəhəng transmilli layihələrin həyata keçirilməsində həlledici rol oynayır. Prezident İlham Əliyevin söylədiyi kimi, “bu gün Azərbaycan tam mənada müstəqil siyasət aparır, heç kimdən asılı deyil, heç bir başqa ölkədən asılı deyil və öz siyasətini yalnız və yalnız Azərbaycan xalqı naminə aparır. Əminəm ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da güclənməsinə yönəlmiş bu siyasət Azərbaycan xalqının maraqlarına tam cavab verir”.

Böyük siyasi və dövlət xadimi Heydər Əliyev Azərbaycanın qanunvericilik orqanını dünyanın inkişaf etmiş ölkələrinin parlamentləri səviyyəsində görməyi arzulayırdı və bunun üçün çox böyük zəhmət sərf etmişdi. Başqa sahələrdə olduğu kimi, bu sahədə də başlanmış işlər sistemli və ardıcıl şəkildə davam etdirilir. Artıq indi qətiyyətlə söyləmək olar ki, müasir Azərbaycanda parlament xalqın suveren iradəsini ifadə edən, qanunları qəbul etmək yolu ilə mühüm ictimai münasibətləri tənzimləyən ali nümayəndəli orqandır. Azərbaycanın xoşbəxt gələcəyi Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi Heydər Əliyev siyasi xətti ilə bağlıdır. Heydər Əliyevin qüdrətli zəkasından güc almış inkişaf strategiyası İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqillik yollarında ardıcıl irəliləməsini, xalqımızın daha firavan günlərə qovuşmasını təmin edir.

Sonra çıxış edən Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, Sədr müavini Bahar Muradova, deputatlar Fəzail Ağamalı, Gövhər Baxşəliyeva, Zahid Oruc, Rafael Cəbrayılov, Rafael Hüseynov, Jalə Əliyeva, Aqiyə Naxçıvanlı, Elmira Axundova, Siyavuş Novruzov, Əhliman Əmiraslanov, Aydın Mirzəzadə, Şahin İsmayılov, Azay Quliyev, İsa Həbibbəyli, Nizami Cəfərov, Nəsib Məhəmməliyev, Aydın Hüseynov, Məlahət İbrahimqızı ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən danışıblar. Bildirilib ki, müasir Azərbaycan dövlətinin qurulması və inkişaf etdirilməsi, azərbaycançılıq məfkurəsinin, ana dilimizin, milli-mənəvi dəyərlərimizin qorunması və təbliği, ölkəmizin iqtisadi tərəqqisi və digər sahələrdə həyata keçirilən nəhəng işlərin bünövrəsi məhz böyük siyasi xadim Heydər Əliyev tərəfindən qoyulub. Bu xidmətləri sayəsində Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə möhtəşəm abidə ucaldıb.

Sonra iclasda ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Bununla da Milli Məclisin iclası öz işini başa çatdırıb.

## Əli HƏSƏNOV: “ABŞ Helsinki Komissiyası Azərbaycana qarşı “xüsusi marağı” ilə fərqlənir”

### Komissiyanın sədri Kris Smit Ermənistana və erməni xalqına xüsusi sevgisinin olduğunu dəfələrlə etiraf edib



Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Facebook sosial şəbəkəsindəki səhifəsində ABŞ Helsinki Komissiyasında Azərbaycandakı seçkilər və fundamental azadlıqlarla bağlı növbəti dinləmələrə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, Əli Həsənov ABŞ Helsinki Komissiyasının Azərbaycana qarşı “xüsusi marağı” ilə fərqləndiyini qeyd edib. Xatırladıb ki, məhz bu komissiyanın sədri konqresmen Kris Smit hələ 2016-cı ilin dekabrında Azərbaycana qarşı sərt sanksiyaları nəzərdə tutan qanun layihəsi irəli sürmüşdü. Həmin layihənin müddəaları istər iqtisadi, istər siyasi, istərsə də hərbi sferada ABŞ-Azərbaycan münasibətlərini ciddi şəkildə korlamağa yönəlmişdi. Bu həmin Smitdir ki, uzun müddətdir qondarma erməni soyqırımının ABŞ hökuməti tərəfindən tanınması üçün xüsusi canfəşanlıq göstərir. Bütün ölkələrə, xalqlara və konfessiyalara eyni münasibət sərgiləməli olan komissiya sədri özünün Ermənistana və erməni xalqına xüsusi sevgisinin olduğunu dəfələrlə etiraf edib.

Prezidentin köməkçisi Facebook sosial şəbəkəsindəki səhifəsində daha sonra yazır: “Budəfəki dinləmələrin də məhz onun rəhbəri olduğu komissiya tərəfindən təşkil edilməsini təsadüfi saymaq olmaz. Tədbirdə ölkəmizdəki prosesləri yaxından izləyən, ona maraq göstərən insanlarla yanaşı, müxtəlif səbəblərdən daim kəskin antiazərbaycan mövqeyi tutan “ekspertlər” də iştirak ediblər. Dinləmələrdəki çıxışlarla tanışlıq natiqlərin Azərbaycanda baş verən proseslər, ölkəmizdəki siyasi qüvvələr nisbəti, özlərini siyasi partiya və ya ictimai hərəkat kimi təqdim edən bəzi qurumların cəmiyyət həyatındakı real çəkisi və gerçək niyyətləri barədə çox səthi, əksər hallarda isə yanlış təsəvvürə malik olduqlarını göstərdi. Xarici qrant və ianələr hesabına Azərbaycandan kənarda informasiya resursu yaradan, bir neçə il əvvəl həmin resursa məxsus saytda erməni soyqırımının tanınmasının vacib olduğu barədə məqalə yerləşdirən bir “soydaşımız” yenə də sanksiya məsələsini gündəmə gətirdi, Azərbaycanın lobbiçilik sahəsindəki fəaliyyətini tənqid etdi, ABŞ-ı və Avropa İttifaqını növbəti dəfə ölkəmizə ciddi təzyiq göstərməyə çağırdı.

Qəribə olan həm də budur ki, son dövrlər özünü Avropadakı “iaşə müxalifəti lideri” kimi tanıtmış, vulqar davranışı, təhqiramiz ritorikası və azərbaycanlıya xas olmayan saç düzümü ilə fərqlənən birisi də həmin tədbirə dəvət edilmişdi. Nə danışdığının fərqində olmayan bu “iaşə lideri” Qərb ölkələrini Azərbaycan hakimiyyəti ilə normal münasibət saxlamaqda ittiham edir, Avropa İttifaqı, aparıcı Avropa ölkələri və ABŞ liderlərinin növbədənkənar prezident seçkilərindən sonra cənab İlham Əliyevə məktub göndərərək onu təbrik etmələrini az qala faciə sayır. Təəssüf hissilə bildirirəm ki, xaricdə məskunlaşmış bəzi soydaşlarımız bu gün antiazərbaycan dairələrin əlində bir alətə çevrilib. Onlardan dövlətimizi, xalqımızı və ölkə hakimiyyətini gözdən salmaq üçün fəal istifadə edirlər. Görünür, bütün bu canfəşanlıq, müxtəlif ölkələrdə keçirilən tədbirlər, bir ölkədən digərinə və hətta bir qitədən başqasına edilən səfərlər sırf şəxsi təşəbbüs deyil. Heç şübhəsiz, bütün bunların arxasında xaricdəki bəzi antiazərbaycan dairələrdən və imkanlı azərbaycanlılardan alınan böyük miqdarda pullar və mütəmadi təlimatlar dayanır”.

Belələrini tutduğu səhv yoldan çəkinməyə çağıran Əli Həsənov yazır: “Xaricdə öz ölkənizə və xalqınıza qarşı belə canfəşanlıqla təbliğat aparmaqdansa, intellektinizin imkan verdiyi dərəcədə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırın. Bacarırsınızsa həmin ölkələrdə Azərbaycanın haqq sözünü deyən, Ermənistanın işğalçılıq siyasətinə qarşı çıxan siyasətçilərlə, politoloqlarla, QHT və KİV nümayəndələri ilə əlaqə qurun, onları öz tədbirlərinizə cəlb edin. Belə etsəniz, mənsub olduğunuz xalqın hörmət və etimadını qazanarsınız... Bir sualım da var: sizcə, dünənki dinləmələrdə salonda oturan erməni lobbisi təmsilçiləri öz ölkələrini sizin kimi müzakirə hədəfinə çevirərdilərmi? Hər halda, düşünməyə dəyər”.

## Fövqəladə Hallar Nazirliyinin kollektivi ulu öndər Heydər Əliyevin ideyalarına sadiqdir

Mayın 10-da Fövqəladə Hallar Nazirliyində (FHN) ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə təntənəli mərasim keçirilib. FHN-dən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə nazirliyin kollektivi Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, ulu öndərin xatirəsini ehtiramla yad edərək məzarı önünə gül-çiçək dəstələri qoyublar.

Fövqəladə Hallar Nazirliyinin inzibati binasında keçirilən mərasim Dövlət himninin səslənməsi ilə başlayıb.

Tədbirdə çıxış edən fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov xalqımızın böyük oğlu, müasir Azərbaycan dövlətinin banisi və qurucusu ümummilli lider Heydər Əliyevin həyat yolundan, tarixi xidmətlərindən danışaraq qeyd edib ki, ölkəmizin bugünkü inkişafına və çiçəklənməsinə görə dahi rəhbərə borcluyuq. Cəmiyyətin bütün sahələrindəki intensiv inkişafın əsası ulu öndərin istər 1969-1982-ci illərdə ölkəmizə rəhbərlik etdiyi illərdə, istər 1982-1987-ci illərdə SSRİ rəhbərliyində təmsil olunduğu vaxt, istərsə də 1993-cü ildən sonrakı fəaliyyəti dövründə atdığı möhkəm özüllərin sayəsində qoyulub. Nəticədə Azərbaycan Respublikası regionun iqtisadi cəhətdən qüdrətli dövlətinə, beynəlxalq birliyin nüfuzlu üzvlərindən birinə çevrilib.

Nazir xüsusi vurğulayıb ki, hələ SSRİ vaxtında Azərbaycan dilinə dövlət dili statusunun verilməsi ümummilli lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biri olub. Bunun nəticəsində böyük tarixi şəxsiyyət gələcək müstəqil dövlətçiliyin milli atributlarını məharətlə qoruyub.

Ulu öndərin “Nə qədər ki, Azərbaycan var, mən də varam” sözlərini xatırladan nazir Kəmaləddin Heydərov Azərbaycan Respublikasının ümummilli liderin şah əsəri olduğunu deyib. Bildirib ki, cəmiyyətimizin bütün sahələrində Heydər Əliyevin izlərini görmək mümkündür. Heç şübhəsiz ki, gələcək nəsillər də dahi rəhbərin böyük və misilsiz xidmətlərini dərin ehtiramla yad edəcək. Azərbaycanın siyasi, iqtisadi inkişafı, cəmiyyət və dövlət həyatının bütün sahələrində qazanılmış böyük nailiyyətlərin Heydər Əliyevin müdrik siyasi kursunun davam etdirilməsi nəticəsində əldə olunduğuna diqqəti çəkən nazir Prezident İlham Əliyevin bu xəttin alternativsiz davamçısı olduğunu nəzərə çatdırıb. Məhz Prezident İlham Əliyevin düşünülmüş və hərtərəfli siyasəti nəticəsində Azərbaycan Respublikası bütün dünyada regionun qüdrətli dövləti, iri investor şirkətlərini özünə cəlb edən dayanıqlı inkişafa malik ölkə kimi tanınır.

Fövqəladə hallar naziri bildirib ki, ümummilli lider digər sahələrdə olduğu kimi, təbii və texnogen xarakterli fəlakətlərdən əhalinin etibarlı mühafizəsinin təşkil olunması üçün də konkret işlər görüb, müasir xilasetmə texnika və avadanlığın alınmasını, xilasedici mütəxəssislərin hazırlanmasını diqqət mərkəzində saxlayıb, bu sahədə mühüm qərarlar qəbul edib. Diqqətə çatdırılıb ki, Fövqəladə Hallar Nazirliyinin yaradılması da ulu öndərin ideyası olub və 2005-ci ildə Prezident İlham Əliyev bu ideyanı yüksək səviyyədə gerçəkləşdirərək mükəmməl normativ hüquqi bazaya malik, maddi-texniki avadanlıqla təchiz olunmuş, müasir standartlara uyğun qurum yaradıb.

Nazir Kəmaləddin Heydərov bu gün böyük tarixi şəxsiyyətin irsini yaşadıb təbliğ edərək bütün dünyaya tanıdan Heydər Əliyev Fondunun və fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da xidmətlərindən danışıb.

Çıxışının sonunda nazir Kəmaləddin Heydərov əminliklə vurğulayıb ki, Fövqəladə Hallar Nazirliyinin kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına, dövlətçilik xəttinə sadiq qalaraq bundan sonra da bütün qüvvə və bacarığını müstəqil respublikamızın yüksəlişi, tərəqqisi naminə səfərbər edəcək.

Mərasimdə çıxış edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli ümummilli liderin anadan olmasının 95 illiyinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə eyni vaxta təsadüf etdiyini vurğulayıb. Bildirib ki, Heydər Əliyev ömrünün yarısından çoxunu dövlətçilik ənənələrinin qorunmasına, dövlət quruculuğuna həsr edib. Onun titanik fəaliyyəti bu ənənələrin davamı və dövlətin əbədi olmasına yönəlib. Natiq ümummilli liderin ölkəmizdə demokratik təsisatların və hüquqi dövlətin qurulması ilə bağlı aparılan islahatları xatırladaraq məhz dahi rəhbərin uzaqgörənliyi nəticəsində müxtəlif xarici təhdidlərə və təhlükələrə baxmayaraq, Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyin təmin olunduğunu, iqtisadi uğurların əldə edildiyini söyləyib.

## Qanunda dəyişikliklər müzakirə olunub

Mayın 10-da Milli Məclisin Aqrar siyasət komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Eldar İbrahimov iclasın gündəliyinə üç məsələnin daxil olduğunu qeyd edib.

İclasda qanun layihələrini Milli Məclis Aparatının iqtisadi qanunvericilik şöbəsinin müdir müavini, aqrar qanunvericilik sektorunun müdiri Vilayət Əlizadə təqdim edib. Bildirilib ki, “Torpaq icarəsi haqqında” qanunun 10-cu maddəsində edilən dəyişikliklərdən məqsəd dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqlardan daha səmərəli istifadə edilməsidir. Layihə torpaqların icarəyə verilməsi sahəsində mövcud olan problemlərin həllini tənzimləyəcək, nəticədə kənd təsərrüfatı məhsullarının istehsalı artacaq.

Deputatların nəzərinə çatdırılıb ki, Torpaq Məcəlləsinin 14-cü maddəsində aparılan dəyişiklik də “Torpaq icarəsi haqqında” qanunda edilən dəyişikliklərlə əlaqədardır və qanunvericiliyin uyğunlaşdırılması xarakteri daşıyır.

Qeyd olunub ki, “Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında” qanunun 11-ci maddəsinə təklif olunan dəyişiklik bu qanunu “Notariat haqqında” qanuna uyğunlaşdırma məqsədi daşıyır.

Fikir mübadiləsində komitənin sədr müavini Eldar Quliyev, deputatlar Novruz Aslan, İqbal Məmmədov, Tahir Süleymanov, ekspert Zahid Abbasov qanun layihələrinə müsbət münasibət bildiriblər. Baxılan qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.



# Xalq məhəbbətinin təcəssümü

Adı tarixə yazılan şəxsiyyətləri nə zaman unudur, nə də ictimai-siyasi burulğanlarda varlığını qoruyub saxlayan xalq. Təbii ki, talelərə yazılan sərt sınaqlardan əzmlə çıxaraq xalqın sevimlisinə çevrilmək də asan deyil, bunu təkrarlanan tarix dəfələrlə təsdiqləyib. Bu şərəf, əlbəttə, çoxlarına nəsib olmayıb. Xalqımızın ümummilli lideri Heydər Əliyevin də məhz belə şəxsiyyət kimi tanınmasını və dühası qarşısında baş endirilməsini şərtləndirən səbəb, onlardan doğan nəticələr kifayət qədərdir.

2003-cü ilin soyuq dekabrında paytaxt Bakı sükut, qüssə və kədərə bürünmüşdü. O zaman hüznlü baxışlardan kədər, qəhər və qüssədən damcılayan göz yaşları yanaqları yandırırdı, çünki xalq özünün ümummilli liderini son mənzilə yola salırdı. Ulu öndər isə sevimli xalqından cismən ayrılırdı. Dünən, may ayının 10-da isə Fəxri xiyabanda ulu öndərin məzarını ziyarət edənlərin çöhrəsində başqa bir hissi də duymaq olurdu. Bunun səbəbi var idi. Ən əsası isə odur ki, ulu öndərin memarı olduğu müasir Azərbaycan nəinki Cənubi Qafqazda, hətta inkişafına görə dünyanın aparıcı dövlətləri sırasındadır. Ulu öndərin müəyyənləşdirdiyi siyasi kurs dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ziyarətə gələnlərin yaş fərqi göstərirdi ki, xalqın qəlbində əbədi məşəl yandıranlar mənən yaşayır və əbədiyyət simvoluna çevrilirlər. Anadan olmasının 95 illiyi bahar təravətli gül-çiçəyə bələnmiş ulu öndərin müqəddəs ziyarətgahı - Fəxri xiyaban yenə də insan axınına şahidlik edirdi.

Ulu öndərin şəxsiyyətinə hörmət və ehtiram təkcə mənsub olduğu ölkədə deyil, onun hüdudlarından çox-çox uzaqlarda da özünü daim göstərib. Bu ümumxalq məhəbbətinin şahidinə çevrilənlərin arasında əcnəbilər də az deyildi. Qardaş Türkiyədən builki ziyarətə gələnlərin sayının daha çox olması isə ilk andaca diqqəti cəlb edirdi. Türkiyə Cümhuriyyətinin Kayseri şəhərinin Yeşilhisar ilçesindən olan Mustafa Babacan buna qismən də olsa, aydınlıq gətirdi: "...Ulu öndər Heydər Əliyev, M.K.Atatürk kimi, türk dünyasının tarixi şəxsiyyətidir. Onun doğum günü ziyarətinə gəlmək hər birimizin müqəddəs borcudur. Türkiyədə hakim AKP-nin və bələdiyyə məclisinin üzvüyəm. İki qardaş xalqın sevinci də, kədəri də birdir. Ulu öndər heç də təsadüfi yerə deməmişdir: "Türkiyə-Azərbaycan bir millət, iki dövlət"dir. Bu birliyi qorumaq hər iki ölkənin vətəndaşlarının qardaşlıq borcudur. Şükürlər olsun ki, bu gün Türkiyənin Cümhurbaşkanı sayın R.T.Ərdoğanla Azərbaycanın dövlət başçısı cənab İlham Əliyev həmin qardaşlığın bariz nümunəsi kimi hər iki tərəfdə sevilirlər. Azərbaycanın dövlət başçısı cənab İlham Əliyev növbəti dəfə xalqın etimadı ilə Prezident seçildikdən sonra ilk səfərini yenə də qardaş Türkiyəyə etdi. Bu, türk xalqları üçün bir mesajdır. Ulu kökə, tarixi ənənələrə söykənən qardaşlıq münasibətlərimiz möhkəmləndikcə hərtərəfli inkişafımıza da şərait yaranır. İnşallah, Qarabağ sorunu da öz həllini tapar. Orada da təntənəli qələbəni alqışlayarıq".

"Azərbaycanın regionda lider dövlətə çevrilməsi xalqımızın ümummilli liderinin - həyat və fəaliyyətini bütünlüklə müstəqil respublikamızın çiçəklənməsinə, onun dünya birliyində layiqli yer tutmasına zamanında həsr etmiş Heydər Əliyevin xidmətidir". Bu fikirlər Kəlbəcər rayonunun Başlıbel kəndindən məcburi köçkün Nazim İsayevə məxsusdur. Həyat yoldaşı Samirə xanım və 20 nömrəli Kəlbəcər tam orta məktəbin 8-ci sinif şagirdi Vüqarla birlikdə ulu öndərin məzarını ziyarət edərkən söylədi: "Ümummilli liderin uzaqgörən və alternativsiz siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müstəqil Azərbaycan dövlətinin qurulmasında və dövlətçiliyin qorunub saxlanmasında xilaskarlıq simvoluna çevrilən ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərini saymaqla qurtarmaz. Bizim hər birimizin bu ziyarəti ölkə vətəndaşının vətənə və dövlətinin qurucusuna əbədi ehtiramı deməkdir".

Məcburi köçkün Aybəniz Əliyeva həyat yoldaşı Həşim Nəcəfovla Xırdalan Pivə Zavodunda çalışdığını dedi. Bildirdi ki, ailəliklə Yeni Azərbaycan Partiyasının üzvüdürlər. Ziyarətə də elə ailəliklə gəliblər: "Ulu öndərin həyat və fəaliyyətinə nəzər salanda qürur hissi keçiririk. Bilirik ki, hələ gənclik illərindən Heydər Əliyev tarixə imza atmaq yolu ilə irəlilədi. Çoxlarının sona kimi gedə bilmədiyi bu çətin və şərəfli yol dövləti və xalqı xoş və işıqlı sabahlara apardığından ulu öndər mübarizliyinə və əzmkarlığına güvəndi! İstər birinci, istərsə də ikinci dəfə hakimiyyətdə olduğu dövrlərdə əsl xalq və millət, vətən və dövlət adamı olduğunu əməli fəaliyyəti ilə təsdiq etdi. Bu gün Prezident İlham Əliyev həmin siyasəti çox uğurla davam etdirir. İnanırıq ki, bizi də doğma yurdlarımıza məhz Prezidentin qətiyyətli siyasəti qaytaracaq. Dövlət başçısının torpaqlarımızın işğaldan azad edilməsi uğrunda apardığı mübarizə, əzmkarlıq nümunəsi bunu söyləməyə bizə əsas verir".

Bakı şəhəri Nərimanov rayonundakı 39 nömrəli tam orta məktəbin müəllimi, şəhid bacısı Sədaqət Məlikovanın dediklərindən: "Ulu öndərin yalnız özünəxas cəsarəti, möhkəm iradəsi, əsl liderə məxsus bacarığı Azərbaycanın bugünkü inkişafına səbəb olub. Faktları sadalamağa ehtiyac olmasa da, qeyd etməliyik ki, ümummilli liderin dövlətçiliyimizin möhkəmləndirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, dünyaya səpələnmiş soydaşlarımızın birliyini yaratması heç də təsadüfi deyildi. Bunlardan ən vacibi isə dünyanın aparıcı dövlətlərinin strateji maraqlarını Azərbaycanın mənafeyi istiqamətində birləşdirməyə nail olması idi. O, bunu da öz iradəsi ilə bacardı. İctimai-siyasi fəaliyyətini, mənalı ömrünün bir qərinədən artıq dövrünü xalqımızın və müstəqil dövlətimizin inkişafına həsr edən, bu yolda misilsiz xidmətlər göstərən Heydər Əliyev zamanın tarixini yaradan və yaşadan, onun fövqündə dayanmağı bacaran, dövlət idarəçiliyini kamil bilən fenomen kimi yazıldı yaddaşlara".

Həmsöhbətimiz Nahidə Əliyeva 8 yaşlı oğlu Muradla Rusiyadan gəlib. BDU-nun məzunu olmuş həmyerlimiz Nijni-Novqorodda yaşayır. Həyat yoldaşı Fikrət Əliyev həkim, özü isə şəhər sosial müdafiə fondunun şöbə müdiridir. Ulu öndərə əbədi ehtiramının sübutudur ki, ailəsi ilə birlikdə hər il ziyarətə gəlirlər. Nahidə xanım bildirdi ki, bu gün saysız-hesabsız ziyarətçilərdən biri olmağından qürur hissi keçirir. Axı gənclərin azad, müstəqil ölkənin vətəndaşları olması məhz ulu öndərin davam etdirilən siyasəti ilə mümkün olub: "Dünya xalqları da ümummilli liderin şəxsiyyətinə dərin ehtiram göstərir. Burada gördüyümüz izdiham isə dahi öndərin milyonların qəlbində yaşamasının sübutudur. Gələcək nəsillər tarixi şəxsiyyətimizin həyat və fəaliyyətini daim örnək biləcəklər".

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin fəallarından biri, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı Həbib Misirov bildirdi ki, Azərbaycan xalqının xoş və firavan həyatına ömrünü həsr edən ümummilli lider Heydər Əliyevin bəşəri şəxsiyyət olması yeni tariximizin səhifələrində özünü təsdiqləyir: "Dövlətimizin gənclər siyasəti bu gün çox uğurla və məqsədyönlü şəkildə həyata keçirilir. Azərbaycan gənci elmi və intellektual dünyagörüşü ilə dünyadakı həmyaşıdları arasında seçilir. Dünyanın ən aparıcı ali təhsil ocaqlarında elmin müasir nailiyyətlərini öyrənən gənclik gələcəyin kadrlarıdır. Bu potensiala diqqət yetirən dövlət başçımızla fəxr duyuruq. Cənab İlham Əliyev həm də ətrafında yüz minlərlə vətənpərvər gənci birləşdirən Yeni Azərbaycan Partiyasının lideridir. Biz gənclik ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla və məqsədyönlü şəkildə davam etdirən liderimiz - Azərbaycan Prezidentinin ətrafında sıx birləşmişik.

Ramin və Bəhram Bəylərzadə qardaşları, Anar Məhəmmədov, Emin və Elçin Əliyevlər də ziyarətçilərin arasındakı gənclərdəndirlər. "Azərbaycan Dəmir Yolları" QSC-nin əməkdaşı Sənan Sadıqzadə gənclərin fikrini ümumiləşdirib belə ifadə etdi: "Gəncliyin Heydər Əliyevin ideyaları ruhunda tərbiyə olunması, müdrik rəhbərimizin qurub-yaratdığı müstəqil dövlətimizin şanlı tarixinin onlara elmi əsaslarla mənimsədilməsi və təbliği vacib məsələdir. Biz gənclərin üzərinə düşən şərəfli missiya isə vətənə layiqli övlad olmaqdır. Buna nail olmağa çalışırıq. Çünki dövlətimizin biz gənclərə qayğısına yalnız bununla cavab verə bilərik. Azərbaycan yaşadıqca ulu öndərin adı onunla qoşa çəkiləcək. Biz ulu öndərin xalqa sədaqətli xidmət mədəniyyətinin təbliğatçılarına çevrilməli, vətəni onun kimi sevməli və sevdirməliyik".

...Ulu öndərin anadan olmasının 95 illiyi ilə əlaqədar xalqımız dövlətimizin memarı və qurucusunun müqəddəs məzarını növbəti dəfə ziyarət etmək üçün dünən də dəstə-dəstə Fəxri xiyabana üz tutmuşdu. Ziyarətçilər belə qüdrətli dövlətin banisi olduğu üçün ümummilli liderlə daim fəxr edəcəklərini dilə gətirir, cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə respublikamızın inkişafında öz əmək və zəhmətlərini bundan sonra da əsirgəməyəcəklərini əminliklə ifadə edirdilər.

*Məhəmməd NƏRİMANOĞLU,*
*Fərman BAĞIROV (foto),*
*"Azərbaycan"*

# Bakıda ilk dəfə Dünya Limanlar Konfransı keçirilib

## *Konfrans çərçivəsində Bakı Limanı dostluq və əməkdaşlıq barədə 4 anlaşma memorandumu imzalayıb*

Mayın 9-10-da Bakıda Dünya Limanlar Konfransı (IAPH Baku 2018) keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransın açılışında çıxış edən Beynəlxalq Limanlar Assosiasiyasının (International Association of Port and Harbors - IAPH) prezidenti Santiaqo Qarsiya Mila Bakının qədim İpək Yolunun mərkəzində yerləşdiyini deyib. Bildirib ki, konfransın da bu şəhərdə keçirilməsi təsadüfi deyil. Həmçinin Bakı konfransı bu regionda Beynəlxalq Limanlar Assosiasiyasının keçirdiyi ilk tədbirdir.

O, konfransın Azərbaycanın nəqliyyat və logistika imkanlarının tanıdılması baxımından əhəmiyyətini qeyd edib.

"DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim deyib ki, Bakı Limanı Dünya Limanlar Konfransına möhtəşəm evsahibliyi edir. Bu tədbirin Bakıda keçirilməsi mühüm hadisədir. Son dövrlərdə Azərbaycanın logistika sahəsində atdığı vacib addımlar, həyata keçirilən beynəlxalq layihələr, Bakı Limanında görülən əhəmiyyətli işlər bu tədbirin məhz Bakıda keçirilməsinin önəmini göstərir: "Bakıda keçirilən Dünya Limanlar Konfransı limanlar arasında əlaqələrin inkişafı baxımından mühüm platformadır. Burada iştirak edən dünya limanlarının rəhbər və nümayəndələri gələcək fəaliyyətləri ilə bağlı diskussiyalar apara və əməkdaşlıq yarada bilərlər".

Konfransda çıxış edən Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə bu mötəbər tədbirin Bakıda keçirilməsinin əhəmiyyətini qeyd edərək bildirib ki, Sidney, Los-Anceles, Hamburq, Panama, Bali və sair kimi böyük liman şəhərlərinin evsahibliyi etdiyi bu konfransın 2018-ci ildə məhz Bakı şəhərində keçirilməsi ölkəmiz üçün mötəbər hadisədir: "Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tarixi İpək Yolunun bərpası Azərbaycanın tranzit potensialının artırılmasına zəmin yaradıb. Nəqliyyat və logistika dünyada ən dinamik inkişaf edən sahələrdən biridir. Ölkəmizdə də bu sahə prioritetdir və daim Prezident İlham Əliyev tərəfindən diqqət mərkəzində saxlanılır. Bu gün Azərbaycan bir sıra irimiqyaslı beynəlxalq nəqliyyat layihələrinin həm təşəbbüskarı, həm də iştirakçısıdır. Ölkə rəhbərliyinin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan regionun əsas nəqliyyat qovşağına çevrilib. Bu işlər Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətinin artmasında mühüm rol oynayır".

Nazir bildirib ki, Azərbaycanda innovativ texnologiyalara əsaslanan dayanıqlı nəqliyyat sistemi formalaşdırılır. Mövcud nəqliyyat kompleksinin rəqabət qabiliyyətinin artırılması məqsədilə bu sahədə zəruri islahatlar aparılır, idarəetmə təkmilləşdirilir. Ölkə ərazisində yüklərin qəbul edilməsində və daşınmasında yük həcmlərinin artırılması məqsədilə Prezidentin sərəncamına əsasən Ələt qəsəbəsində Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı tikilib: "İqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun inkişafında xüsusi rolu olan müasir nəqliyyat infrastrukturunun yaradılması, beynəlxalq nəqliyyat dəhlizlərinin imkanlarının genişləndirilməsi üçün respublikamızda bir sıra işlər görülüb. Bütün bunlar isə Azərbaycana və tərəfdaşlarına böyük iqtisadi dividendlər gətirir, regionun strateji əhəmiyyətini artırır".

R.Quluzadə qeyd edib ki, yerləşdiyi ərazinin böyük üstünlüklərə malik olması sayəsində yeni liman Azərbaycanda nəqliyyatın təhlükəsizliyi məsələlərini uğurla həll etməyə, Bakının Xəzər hövzəsində çox müasir və böyük nəqliyyat-logistika mərkəzinə çevrilməsinə imkan yaradır. Həmçinin yeni liman Xəzəryanı ölkələr arasındakı əməkdaşlığı genişləndirməyə, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin tam gücü ilə işləməsinə əlverişli şərait yaradır: "Artıq 2018-ci ilin sonlarından etibarən yükdaşıyıcılar yeni Bakı Limanının müasir informasiya kommunikasiya sistemləri vasitəsilə onlayn rejimdə yüklərin yerini və limanlara çatma vaxtını müşahidə edə biləcəklər. Bakı Limanı Yaşıl Liman və logistika mərkəzi kimi inkişaf etdirilir. Burada Avropa İttifaqının ekoloji, iqtisadi və sosial təminatlarla bağlı yeni strategiyasına uyğun olaraq ən son texnologiya və ekoloji standartlar tətbiq edilir. Bu məqsədlə yeni Bakı Limanında Xəzər hövzəsində neftlə və məişət tullantıları ilə çirklənmiş suları təmizləyən qurğular quraşdırılıb".





O deyib ki, Ələt Azad İqtisadi Zonası Azərbaycanı regionun nəqliyyat və logistika mərkəzinə çevrilməsinə xidmət edir. Bu zona yeni Bakı Limanının Avropa, Yaxın Şərq, Mərkəzi Asiya, Türkiyə, Çin, Rusiya, İran kimi dövlətlər üçün rolunu artırır: "Regional nəqliyyat qovşağı kimi yeni limanın əhəmiyyətini daha da artıracaq digər layihə Bakı-Tbilisi-Qars dəmir yolu xəttidir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti və Yeni Liman Kompleksi gələcəkdə yüklərin Çin və Mərkəzi Asiyadan Avropaya və əks istiqamətdə daşınması üçün əlverişli şərait yaradacaq".

R.Quluzadə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi" barədə də məlumat verib. Bildirib ki, bu nəqliyyat dəhlizlərində işlərin tamamlanmasından sonra qatarların Hind okeanı hövzəsindən birbaşa Şimali Avropa, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu xətti vasitəsilə Türkiyə ərazisindən keçməklə Şərqi və Mərkəzi Avropa, eləcə də yeni liman üzərindən bərə keçidi vasitəsilə Mərkəzi Asiya istiqamətlərində hərəkəti mümkün olacaq. Bu layihələr İpək Yolunun canlanmasını, regionda daha effektiv nəqliyyat əlaqələrinin yaradılmasını təmin edəcək, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi üzrə tranzit yükdaşımalarının artırılmasına şərait yaradacaq.

Avropa İttifaqının komissarı Yohannes Han Dünya Limanlar Konfransına ünvanladığı videomüraciətdə Bakıdakı konfransda şəxsən iştirak edə bilməməsindən təəssüfləndiyini, lakin bu vacib regional tədbirə videomüraciətini çatdırmasından məmnunluq hissi duyduğunu bildirib. O, dövlət başçısı İlham Əliyevi yenidən Azərbaycan Prezidenti seçilməsi münasibətilə təbrik edib.

Yohannes Han deyib ki, Azərbaycan Avropa və Asiyanı birləşdirmək rolunda çox mühüm mövqe tutur. Avropa İttifaqı Bakı Limanına beynəlxalq logistika və ticarət qovşağı olması yolunda dəstəyini davam etdirəcək. Bağlantılar 2020-ci il üçün ən əsas 20 məqsəddən biridir.

"Biz keçən noyabr ayında Şərq Tərəfdaşlığı Sammitində təsdiqlədik ki, bu, iqtisadi inkişaf və insanları bir-birinə daha da yaxınlaşdırmaq, cəmiyyətləri daha güclü etmək və təcrübə mübadiləsi üçün imkanlar yaratmaq baxımından mühüm amildir. Sammitdə Avropa İttifaqı 2020-ci ilə qədər əsas Trans-Avropa Nəqliyyat (TEN-T) şəbəkəsinin genişləndirilməsinə 150 milyon avro məbləğində böyük yardım ayıracağını və bununla da bir milyard avrodan çox yatırım nəzərdə tutan uzunmüddətli investisiya planının həyata keçirilməsinə dəstək olacağını bildirib. Biz, həmçinin texniki yardım planlarını, təhlükəsiz, ekoloji və bazarın idarə edəcəyi nəqliyyat sisteminin yaradılmasına köklənən lazımi hüquqi və institusional islahatları dəstəkləyirik. Biz Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) və Avropa İnvestisiya Bankı (EIB) kimi beynəlxalq maliyyə institutları ilə sıx əməkdaşlıq vasitəsilə mühüm infrastruktur layihələrinə investisiyalar yatırırıq. Yeni xarici investisiya planı çərçivəsində fəaliyyət göstərən zəmanət mexanizmi özəl sektor yatırımlarının yönəldilməsində mühüm rol oynayır", - deyə o əlavə edib.

Avrokomissar tədbirin gündəliyində gender, multikulturalizm, logistika kimi mövzuların yer almasını alqışlayıb. "2020-ci il üçün 20 məqsəd çərçivəsində vətəndaşlarımıza real nəticələri təqdim etmək həmişə Avropa İttifaqının diqqət mərkəzində olub. Sahibkarlıq və innovasiyaların təşviqi ilə nəqliyyatın əməkdaşlıq sahələrinin gətirdiyi faydalardan yararlanmaqda insan kapitalı və insanların iştirakı vacibdir. 2018-ci il nəticələrin əldə olunması üçün mühüm ildir və mən sizinlə birlikdə bağlantılar sahəsində daha dərin əməkdaşlığa hazıram", - deyə o bildirib.

Dünya Limanlar Konfransı çərçivəsində "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC dostluq və əməkdaşlıq barədə 4 anlaşma memorandumu imzalayıb. Memorandumlar Bakı Limanı ilə Çinin "Lianyunqanq" Liman Holdinqlər Qrupu, "COSCO" Shipping Lines" MMC şirkəti, Quancou Limanı Administrasiyası və Hindistanın Mumbai Limanı ilə imzalanıb.

IAPH Baku 2018 çərçivəsində Bakı Konqres Mərkəzində sərgi də təşkil edilib. Beynəlxalq Limanlar Assosiasiyasının icraçı direktoru Patrik Verxoven, "Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov, konfransın digər iştirakçıları sərgi ilə tanış olublar.

Sərgidə konfransın təşkilatçıları olan şirkətlər öz məhsul və xidmətlərini təklif ediblər. Həmçinin burada İpək Yolu və "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizləri, dünyanın nəhəng limanları barədə ətraflı məlumat verilir. Dünya Limanlar Konfransına gələn il evsahibliyi edəcək Çinin Quancou şəhəri və "Port of Guangzhou" barədə stend də sərgi iştirakçıları tərəfindən maraqla qarşılanıb. Sərgidə "ADY Ekspress", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (AXDG) stendləri də beynəlxalq təşkilatların nümayəndələri, liman rəhbərləri, nəqliyyat və logistika sahəsində ixtisaslaşmış ekspertlərin diqqət mərkəzində olub.

AXDG xidmətlər barədə maraqlı şəxslər məlumatlandırıb, iştirakçılara xüsusi bukletlər paylanıb. Həmçinin AXDG-nin fəaliyyətini əks etdirən xüsusi video nümayiş olunub. Ziyarətçilərə bu il 160 illiyini qeyd edən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin tarixi barədə də ətraflı məlumat verilib. Şirkətin nümayəndələri sərgi çərçivəsində potensial müştərilərlə də bir sıra məhsuldar görüşlər keçiriblər.

Dünya Limanlar Konfransı mayın 10-da işini müxtəlif sessiyalar və işçi görüşlərlə davam etdirib. "Rəqabət mərkəzi necə formalaşır? Azad Ticarət Zonaları beynəlxalq ticarətdə və dəyər zəncirində əsas oyunçu kimi çıxış edir" adlı sessiyada Şanxay Universitetinin professoru Teo Teotetom, "Dubai Logistics City"nin sabiq baş icraçı direktoru Maykl Profitt, İtaliyanın Triyest limanının prezidenti Zeno d`Agostino və başqaları Azad Ticarət Zonalarının və regional habların əhəmiyyətindən danışıblar.

Müzakirələrdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının coğrafi mövqeyinin unikal imkanlarından, eləcə də onun ticarət qovşaqlarının və marşrutlarının kəsişməsində yerləşməsindən istifadə edərək regional miqyaslı haba çevrilməsi perspektivlərindən danışılıb.

"Kim LNG-dən qorxur?" və "Rəqəmsallaşdırma və dağıdıcı texnologiyalar - ümumi olaraq" adlı işçi görüşlərdə isə son dövrlərdə qlobal qaz bazarında mayeləşdirilmiş təbii qazın (LNG) payının artmasından, LNG daşımalarında limanların yerinin və tutumunun əhəmiyyətindən söhbət açılıb, rəqəmsallaşdırmanın liman idarəçiliyindəki üstünlükləri müzakirə olunub.

Maraqlı diskussiyalarla yanaşı, "IAPH Baku 2018" konfransının iştirakçıları üçün əyləncəli tədbirləri və maraqlı ekskursiyaları nəzərdə tutan mədəni proqram da təşkil edilib.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin evsahibliyi etdiyi Dünya Limanlar Konfransına rekord sayda nümayəndə heyəti qatılıb. Belə ki, dünyanın aparıcı liman dövlətləri sayılan ABŞ, Rusiya, Çin, Hindistan, İndoneziya, Filippin, Yaponiya, Almaniya, Fransa, İspaniya daxil olmaqla dünyanın 65 ölkəsindən beynəlxalq limanların, biznes icmasının, gəmiçilik və logistika üzrə iri şirkətlərin 400-dən çox nümayəndəsi Dünya Limanlar Konfransında iştirak edib.

Xatırladaq ki, Beynəlxalq Limanlar Assosiasiyasının 2016-cı ildə Panamada keçirilən illik konfransı zamanı Direktorlar Şurası yekdilliklə 2018-ci il üçün Dünya Limanlar Konfransının Bakı şəhərində keçirilməsinə dair qərar qəbul edib. Mənzil qərargahı Tokio şəhərində olan IAPH 90 ölkənin təqribən 180 limanını və limanlarla əlaqəsi olan 140 müəssisəsini təmsil edir. Təşkilatın üzvləri dünya dəniz ticarətinin 60 faizindən çoxunu həyata keçirir, beynəlxalq konteyner marşrutlarının 80 faizinə nəzarət edirlər. Qurumun illik konfransları 2013-cü ildə Los-Anceles, 2014-cü ildə Sidney, 2015-ci ildə Hamburq, 2016-cı ildə Panama və 2017-ci ildə Bali kimi böyük liman şəhərlərində keçirilib.

1923 **Azərbaycanın özü qədər əbədi** 2018

Bu günlərdə ölkəmizin hər yerində ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi böyük təntənə ilə qeyd edilir. Hər birimiz üçün əziz olan ulu öndərin doğum günündə bu böyük dühanın Azərbaycan dövləti və xalqı qarşısında xidmətlərinə nəzər yetirməklə həm də bu böyük şəxsiyyətin xatirəsinə öz ehtiramımızı ifadə edirik.





# Heydər Əliyev ideyaları Sumqayıtın inkişafının və quruculuğunun əsas zəminidir












Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi iki, lakin bir-birindən tamamilə fərqli ictimai-siyasi mühitdə ölkəmiz yüksək zirvələrə qalxa bilmişdir. Heydər Əliyev birinci dəfə ölkəmizə rəhbərliyə gələndə iqtisadi və mədəni tənəzzül dövrünü yaşayan Azərbaycan sovet məkanında geridə qalmış respublikalardan biri idi. Məhz ulu öndərin sayəsində o illərdə Azərbaycan keçmiş ittifaqda ən qabaqcıl yerlərə çıxmış, sənaye respublikasına çevrilmişdi. O dövrdə yaradılmış potensial Azərbaycan üçün böyük imkanlar açmış və bu gün də müstəqil dövlətimizə xidmət göstərir.

Bu gün öz intibahının yeni mərhələsini yaşayan Sumqayıtın da sovet hakimiyyəti dövründə inkişafı və nəinki keçmiş SSRİ-də, bütün dünyada tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrdə Heydər Əliyevin böyük qayğısı sayəsində şəhər tarixinin əlamətdar səhifələri yazılıb. Sumqayıtlılar ulu öndərin xüsusi diqqət və qayğısını hər zaman hiss ediblər. Şəhərin sosial-iqtisadi inkişafında, sənayenin formalaşmasında, elmin, təhsilin, mədəniyyətin tərəqqisində bu dahi insanın əvəzsiz xidmətləri danılmaz bir faktdır. Ölkəmizə rəhbərliyi müddətində 16 dəfə Sumqayıtda olan Heydər Əliyevin hər səfəri şəhərin tarixinə mühüm hadisə kimi yazılıb.

Sumqayıt ötən əsrin 30-cu illərinin sonunda salınsa da, məhz ulu öndər Heydər Əliyevin birinci dəfə ölkəmizə rəhbərliyi illərində ona yeni nəfəs verildi. Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər təyin ediləndə Sumqayıtda əsas etibarilə metallurgiya və kimya müəssisələri var idi. Qısa müddətdə məhz Heydər Əliyevin təşəbbüsü ilə yüngül sənaye müəssisələri və sənayenin digər sahələri inkişaf etdirildi, yeni istehsal sahələri istismara verildi. 1970-ci illərin əvvəllərində əhalinin məişət kimyası mallarına olan tələbatını maksimum ödəmək məqsədilə Cənubi Qafqazda ilk dəfə Sumqayıt Məişət Kimyası Zavodu yaradıldı, superfosfat zavodunda yüksək texnologiya əsasında inşa edilərək dənəvər superfosfat gübrəsi istehsalatı işə salındı. 1970-1973-cü illərdə üzvi sintez zavodunda bir-birinin ardınca qliserin, benzol, izobutilen və poliizobutilen, həmçinin xlor və diafraqma üsulu ilə kaustik soda istehsalı sexləri fəaliyyətə başladı, 1974-cü ildə sintetik kauçuk zavodunda yüksək markalı kauçuk istehsal edən sexin yenidən qurulması ilə onun istehsal gücü xeyli artırıldı.

1974-cü ildə Sumqayıtın yaradılmasının 25 illik yubiley tədbirində çıxış edən Heydər Əliyev kimyaçıların heç də asan olmayan, gərgin, fədakar əməyini, əldə olunmuş nailiyyətləri yüksək qiymətləndirməklə yanaşı, kimya sənayesinin prioritet inkişaf istiqamətləri barədə fikirlərini söyləyərək qarşıda duran vəzifələrlə bağlı kimyaçılara gələcək üçün fəaliyyət proqramı ola biləcək dəyərli tövsiyələrini də vermişdi. Bundan sonra, 1975-1976-cı illərdə Heydər Əliyev Sumqayıtın neft-kimya kompleksi üçün yeni texnologiyalar əsasında yaradılmış, Almaniya və Çexoslovakiya istehsalı olan EP-300 qurğusunun - layihə gücü etilenə görə 300 min, propilenə görə isə 138 min ton olan həmin nadir kompleksin əldə edilməsi üçün Moskvaya müraciət etmişdi. Çox keçmədən ittifaq rəhbərliyi Heydər Əliyevin təklifini nəzərə alaraq xaricdən böyük həcmdə valyuta ilə alınan EP-300 texnoloji kompleksinin Sumqayıtda inşasına qərar verdi. Artıq 1981-ci ildə həmin müasir texnoloji kompleksin Azərbaycana gətirilərək Sumqayıtda inşasına başlanılması Heydər Əliyev dühasının, onun müdrik iqtisadi siyasətinin böyük qələbəsi idi.

1969-1982-ci illərdə ulu öndərin rəhbərliyi altında Sumqayıtda digər müəssisələr istifadəyə verilmişdi. Bunlardan kompressorlar zavodunu, üst trikotaj və xovlu iplik fabriklərini, süd və yeyinti məhsulları kombinatlarını, 20-dən çox orta məktəbi, uşaq bağçalarını, Ü.Hacıbəyov adına "Kimyaçılar" mədəniyyət sarayını və başqa obyektləri misal göstərmək olar.

1970-1980-ci illərdə Sumqayıt öz iqtisadi potensialına görə SSRİ məkanında tanınmağa başladı. Onun istehsal etdiyi məhsullar ölkənin 700 şəhərinə ixrac olunurdu. Bütün bunlar ulu öndərin Sumqayıta olan münasibətini nümayiş etdirirdi. Azərbaycan imperiya tərkibində olmasına baxmayaraq, hərtərəfli inkişaf edirdi. Ən əsası, respublika rəhbərinin diqqət və qayğısı sayəsində şəhər əhalisinin rifahı durmadan yüksəlirdi. Adamlar yaradıcı əməkləri ilə şöhrət qazanır, ucalırdılar. Sumqayıt keçmiş Sovetlər birliyində dostluq, qardaşlıq, metallurqlar, kimyaçılar, energetiklər, inşaatçılar, əmək qəhrəmanları şəhəri kimi şöhrət qazanmışdı.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə də, əvvəlki kimi, Sumqayıta daim diqqət və qayğısını əsirgəmirdi. Bu qayğının nəticəsində Sumqayıt yenidən özünün dirçəliş dövrünə qədəm qoydu. 1993-cü il dekabrın 18-də ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti kimi ilk dəfə Sumqayıta gəlmiş, şəhərimizdə quraşdırılmış yeni telefon stansiyasının açılışında iştirak etmiş, Tarix Muzeyində olmuş, "Şəhidlər xiyabanı" kompleksini ziyarət etmiş, icra hakimiyyətinin işçiləri ilə görüşərək tapşırıq və tövsiyələrini vermişdi. Ulu öndərin uzaqgörən siyasəti, verdiyi tövsiyə və tapşırıqlar şəhərin sosial-iqtisadi inkişafına böyük təkan vermişdi. Müstəqillik illərində Heydər Əliyev 6 dəfə Sumqayıtda olmuş, müxtəlif tədbirlərdə iştirak etmiş, şəhər ictimaiyyəti ilə görüşmüşdü. Bütün bunlar ulu öndərin Sumqayıta və sumqayıtlılara xüsusi diqqətinin təzahürü idi.

Məhz ümummilli liderin müdrik və uzaqgörən iqtisadi inkişaf modelinin nəticəsi olaraq ötən əsrin 90-cı illərində Sumqayıtın yeni ictimai-iqtisadi münasibətlər sisteminə adaptasiyası sürətləndi. Şəhərin sənaye potensialının bərpası, mövcud müəssisələrin modernləşdirilməsi, elmi innovasiyaların tətbiqinin sürətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər tez bir zamanda müsbət nəticələrini göstərməyə başladı. Həmin vaxt ulu öndərin şəxsi dəstəyi ilə xarici investisiya cəlb edilməklə Sumqayıtda iri layihə həyata vəsiqə qazandı: kimya sənayesinin gələcək inkişafında əvəzsiz rol oynayacaq buxar-generator qurğusu inşa edildi.

Ulu öndərin təşəbbüsü ilə 2001-ci ildə Azərbaycan Sənaye İnstitutunun bazasında Sumqayıt Dövlət Universitetinin, Politexnik Texnikumunun bazasında isə Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialının yaradılması şəhər təhsilinin həyatında əlamətdar hadisələrdir.



Ümummilli liderin şəhərlə bağlı qarşıya qoyduğu vəzifə belə idi ki, Sumqayıt yenidən ənənəvi sənaye kompleksi kimi bərpa edilsin, yerli kadr potensialına söykənərək müasir müəssisələr açılsın. Ən vacibi isə, Sumqayıtda insanların rahat yaşamaları üçün müvafiq şərait yaradılsın və yeni iş yerləri açılsın, bununla da Sumqayıt yenidən seçilən bir şəhərə çevrilsin.

Sumqayıt bu gün ümummilli liderin layiqli davamçısı İlham Əliyevin xüsusi qayğısı ilə əhatə olunub. Cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi siyasət nəticəsində ulu öndərin vaxtilə qarşıya qoyduğu hədəflərə yaxınlaşılaraq möhtəşəm nailiyyətlər əldə edilib. Regionların sosial-iqtisadi inkişafına dair birinci, ikinci və üçüncü dövlət proqramlarının icrası Sumqayıt şəhərini inkişaf yoluna çıxarıb. Nəticə etibarilə ötən 15 ildə ölkənin makroiqtisadi göstəricilərində şəhərin xüsusi çəkisi yüksəlib, sahibkarlığın inkişafının daha da sürətləndirilməsi, istehsal və emal müəssisələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin yenidən qurulması istiqamətində uğurlu nəticələr qazanılıb. Xüsusən iqtisadi siyasətin mühüm tərkib hissəsi olan sənayeləşmənin həyata keçirilməsi nəticəsində son illər Sumqayıt şəhərində yeni sənaye sahələri yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixrac potensialı yüksəlib.

Əminliklə deyə bilərik ki, Sumqayıt nəinki Azərbaycanın, bütün Qafqazın müasir sənaye mərkəzidir. Şəhərin iqtisadi strukturuna kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri daxildir. Şəhərdə mövcud olan ağır sənaye müəssisələrinin əksəriyyəti müasir texnologiya əsasında yenidən qurulub. Konkret ifadə etsək, artıq Sumqayıtda 200-dən çox sənayeyönümlü müasir texnologiya əsasında işləyən müəssisə fəaliyyət göstərir. Ən önəmlisi odur ki, bu müəssisələrin əksəriyyəti müasir dünya standartlarının tələblərinə uyğun texnologiya ilə işləyir.

Sumqayıt Texnologiyalar Parkında Azgüntex zavodunda iki istehsal xətti - Günəş modulları və LED lampaları, "Azərsun" Holdinqin kağız və karton emalı və yağ istehsalı fabrikləri, mis emalı zavodu, "Gilan" Tekstil Parkı, tərkibinə çörək zavodu, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan "Sağlamqida" Aqrar-Sənaye Kompleksi, mühərrik yağları istehsalı müəssisəsi olan Texnoil MMC, Kimya Sənaye Parkına daxil olan "Azərtexnolayn" MMC-nin boru istehsalı və texniki avadanlıqlar zavodu, illik istehsal gücü 100 min dəst müxtəlif uniformalar olan "Alyans Textil" MMC, illik istehsal gücü 140 min metr müxtəlif diametrli beton boru və 500 kvadratmetr beton döşəmə daşı olan "Azkontakt" MMC yaradılıb. Bunlardan başqa, Sumqayıt Kimya Sənaye Parkında "Alco Lubricant Company" MMC tərəfindən yüksəkkeyfiyyətli sintetik və yarısintetik sürtkü yağlarının istehsalı, "STDC" MMC tərəfindən məlumatların (datanın) emalı, qeydə alınması, ötürülməsi və "Aqrokimya Azərbaycan" MMC tərəfindən pestisidlər istehsalı müəssisələri istifadəyə verilib.

Bu il isə Sumqayıtda ümumi dəyəri 895 mln. ABŞ dolları olan, illik istehsal gücü isə 1 milyon ton ammonyak və 650 min ton karbamid olacaq karbamid zavodu, ümumi dəyəri 398 mln. ABŞ dolları və illik istehsal gücü 180 min ton olacaq polipropilen zavodu, ümumi dəyəri 420 milyon ABŞ dolları və illik istehsal gücü 120 min ton olacaq yüksək sıxlıqlı polietilen zavodu istifadəyə veriləcək. AzərFlot QSC tərəfindən şüşə lövhələr istehsalı, Azərbaycan Fibro Sement MMC tərəfindən fibro sement lövhələr istehsalı, Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu tərəfindən ferrosilikomanqan istehsalı, "SİKA" MMC tərəfindən tikinti qatqısı istehsalı müəssisələrinin, tütün, yunəyirici-boyaq fabriklərinin də tikintisi davam etdirilir.

Bütün bunların nəticəsində son 15 ildə şəhərdə ümumi məhsul buraxılışı 9,5 dəfə, sənaye məhsulunun həcmi 9,1 dəfə artıb. 2003-2017-ci illər ərzində SKMF tərəfindən Sumqayıta sərmayə yatıran sahibkarlara 145,5 milyon manat kredit verilib. Beləliklə, bu illərdə şəhərdə əsas kapitala yönəldilmiş vəsait 20 dəfə, o cümlədən tikinti-quraşdırma işləri 20 dəfə çoxalıb. 2003-2017-ci illər ərzində 61 min 880-i daimi olmaqla 78 min 620 yeni iş yeri açılıb.

Təkcə 2018-ci ilin birinci rübü ərzində şəhər üzrə ümumi daxili məhsul istehsalı və xidmətlərin həcmi 424,4 milyon manat və ya 151 faiz təşkil edib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 133,4 milyon manat və ya 51 faiz çoxdur. Sənaye məhsullarının istehsalı isə ötən ilin eyni dövrü ilə müqayisədə 46,2 faiz artaraq 296 milyon manat təşkil edib, məhsul istehsalı 94 milyon manatdan çox artıb. Ümumi daxili məhsulun tərkibində qeyri-dövlət sektorunun payı 85 faizdən çox olub. Bu ilin ötən dövründə ayrı-ayrı sahələrin inkişafına 44,4 milyon manat vəsait yönəldilib, 1320 yeni iş yeri açılıb.

Ötən ilin dekabr ayında Sumqayıtda şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident İlham Əliyev şəhərin inkişafına bundan sonra da dəstək veriləcəyini bəyan etdi: *"Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir. Burada yaradılan sənaye müəssisələri ən yüksək standartlara cavab verir. Bu, yeni iş yerlərinin yaradılması deməkdir. Mənə verilən məlumata görə, hazırda Kimya Sənaye Parkında 8 mindən çox insan işləyir - həm tikintidə, həm də müəssisələrin idarə olunmasında. Gələcəkdə bu rəqəm daha da artacaq. Deməli, Sumqayıtda işsizliklə bağlı bütün məsələlər öz həllini tapacaq. Biz gələcəkdə də Sumqayıtın hərtərəfli inkişafı üçün öz dəstəyimizi verəcəyik".*

Prezident İlham Əliyev 18 dəfə Sumqayıta səfər edib. Ölkə rəhbərinin Sumqayıta hər səfəri zamanı verdiyi tövsiyə və tapşırıqların, sərəncamların icrası və həyata keçirilən genişmiqyaslı tədbirlər sənayedə olduğu kimi, həm də tikinti, abadlıq və quruculuq sahəsində əsaslı dönüş yaradıb. Ölkə rəhbərinin tövsiyələri, tapşırıqları və dəstəyi sayəsində Sumqayıtda abadlıq, quruculuq, yaşıllaşdırma işləri, yeni sosial obyektlərin tikintisi və təmiri, şəhərin memarlıq və dizayn baxımından müasir görkəmini saxlamaq şərti ilə irimiqyaslı layihələr icra olunub. Prezident İlham Əliyevin tapşırığı və qayğısı sayəsində şəhərdə 2015-ci ilin sonu, 2016-cı ilin əvvəllərindən başlayaraq abadlıq, quruculuq, yaşıllaşdırma sahəsində irimiqyaslı ünvanlı layihələrin icrasına başlanılıb və qısa müddətdə uğurla başa çatdırılıb. Bunlardan biri - şəhərin əsas giriş yolu olan Sülh küçəsi 4,2 kilometr məsafədə hər iki tərəfə genişləndirilərək 90 min kvadratmetrə çatdırılmasıdır. Sumqayıtın ikinci giriş yolu olan Sahil küçəsi də 7,5 kilometr uzunluğunda yenidən qurulub, yolun eni 13 metrə çatdırılıb. Burada Corat qəsəbəsindən keçən hissədə sakinlərin istirahəti üçün park salınıb.

Sumqayıt Dövlət Dram Teatrı əsaslı təmirdən sonra istifadəyə verilmiş, müasir avadanlıqlarla təchiz edilmiş, 500 yerlik tamaşa, 100 yerlik akt zalları, iş otaqları, işıqlandırma sistemi müasir üslubda yenidən qurulmuş binanın qarşısındakı meydana 15 min kvadratmetr qranit daş döşənmiş, iki fəvvarə və monitor quraşdırılmışdır.

Ulu öndər Heydər Əliyevin adını daşıyan parkda yenidənqurma işləri aparılıb, ərazisi 8 hektardan 10 hektara qədər genişləndirilib, əhalinin istirahəti üçün hər cür şərait yaradılıb. Burada yeni yaşıllıq zolağı salınıb, rəngli fəvvarələr kompleksi və Bayraq meydanı tikilib və uşaqlar üçün əyləncə mərkəzi inşa olunub.

Heydər parkında sahəsi 5 min kvadratmetr olan dördmərtəbəli Heydər Əliyev Mərkəzi inşa edilib, önündə ulu öndərin ağ mərmərdən heykəli ucaldılıb. Mərkəzdə onun həyat və fəaliyyətini əks etdirən muzey, 420 yerlik iclas, 50 yerlik konfrans, rəqs, sərgi və kompüter zalları, elektron kitabxana, xalçaçılıq dərnəyi, rəsm və linqafon otaqları, smart sinfi, foto və videostudiya, gənclər üçün diskussiya zalları fəaliyyət göstərir.

Parkda müasir memarlıq üslubunda sahəsi 2950 kvadratmetr olan 735 yerlik üçmərtəbəli Uşaq İncəsənət Məktəbi də tikilib. Məktəbdə 60 sinif otağı fəaliyyət göstərir. Burada 700-dən çox şagird təhsil alır və 200-dən artıq müəllim çalışır. Yenidənqurma işləri çərçivəsində ümumi sahəsi 1000 kvadratmetr olan ikimərtəbəli Şahmat məktəbi də tikilib və müasir avadanlıqla təchiz edilib.

Sumqayıt dəniz sahilində yerləşsə də, burada heç vaxt bulvar olmayıb. Şəhərdə son illərdə reallaşan möhtəşəm layihələrdən biri də Xəzərin sahilində uzunluğu 4,2 kilometr, sahəsi 106 hektar olan, əhalinin istirahəti üçün bütün şərait yaradılan, müasir tələblərə cavab verən Dənizkənarı bulvardır. Ötən il Madriddə keçirilən "Global Trade Leaders Club"un XXIV Beynəlxalq üstünlük və liderlik forumunda Sumqayıtın yeni salınmış bulvarı "International Award for Excellence & Leadership" mükafatına layiq görülüb. Azərbaycan Prezidenti İlham Əliyevin möcüzə adlandırdığı Sumqayıt bulvarının dünyanın diqqət mərkəzinə düşməsi olduqca qürurverici haldır.

Şahmat məktəbi, Yeni Azərbaycan Partiyasının Sumqayıt təşkilatının inzibati binası, Bayraq Muzeyi, Mərkəzi Bankın Ehtiyat Sistemi binası, 500 metr uzunluğunda tərsanə, şəhərin əsas giriş yolunda Bayraq meydanı şəhərimizin son illərdəki yeni ünvanlarıdır. Bunlardan başqa, Sumqayıtın Tarix Muzeyi, Cümə məscidi və 300 çarpayılıq Sumqayıt Şəhər Mərkəzi Xəstəxanası əsaslı təmir edilib, "Azərikimya" İB-in müəssisələrində əsaslı təmir və yenidənqurma işləri aparılıb. Həmçinin əlillərin bərpa mərkəzi, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binası tikilib, 400-dən artıq çoxmənzilli yaşayış binasının dam örtükləri dəyişdirilib, 1660 şagirdlik 5 məktəb binası, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbinin tədris korpusu tikilib. "Kimyaçılar" Mədəniyyət Sarayı, 7650 şagirdlik 8 məktəb binası və 1 saylı Uşaq-Gənclər İdman məktəbi, General M.Əsədov adına 1176 şagird yerlik gimnaziya əsaslı təmir edilib.

Hazırda şəhər prokurorluğunun, Məhkəmə Kompleksinin, Sumqayıt Sərnişin Stansiyasının yeni inzibati binasının və müasir tipli körpələr evi-uşaq bağçasının, Bakı-Quba avtomobil yolundan başlayaraq 4 kilometr uzunluğunda metallurq Yəhya Məmmədov küçəsinin təmiri və "Acı Dərə" kanalının məcrasının dəyişdirilməsi ilə əlaqədar yeni suötürücü kanalizasiya xəttinin çəkilişi davam edir.

Bu gün Sumqayıt özünün yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində şəhərimizin inkişafı təmin olunub, Sumqayıt sənaye mərkəzi kimi vaxtilə qazandığı şöhrətini yenidən bərpa edib. Sumqayıtın bugünkü inkişafı göstərir ki, ulu öndər Heydər Əliyevin arzuları reallaşır, ideyaları həyata vəsiqə qazanır. Şəhər ictimaiyyətinin hər bir nümayəndəsi bu inkişafın daha da vüsət almasına töhfə verməyi ulu öndərin xatirəsinə ehtiram nümunəsi olaraq mənəvi borc sayır.

***Zakir FƏRƏCOV,***
***Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı***

# Məktəblilərin rəsm sərgisi





Səbail rayonunun mərkəzindəki “Sahil bağı”da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində rayon icra hakimiyyətinin təşkilatşılığı ilə məktəblilərin və gənc rəssamların iştirakı ilə “Heydər Əliyev və Azərbaycan” mövzusunda rəsm müsabiqəsi keçirilmişdir.

Bayramsayağı bəzədilmiş “Sahil bagı”nda böyük abadlıq isləri aparılmış, park başdan-başa yenilənmiş, müxtəlif kompozisiyalar hazırlanmışdır. Parkdakı gül kompozisiyaları insanları ayaq saxlamağa, dahi şəxsiyyətə xalq məhəbbətinə güllərin, çiçəklərin dili ilə baxmağa vadar edirdi.

Rayonun orta məktəblərində, həmçinin Bakı Oksford məktəbində oxuyan 200-dən çox məktəbli, ali məktəblərin tələbələri, 100-dən çox gənc rəssam ulu öndər Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın portretlərini, həmçinin doğma Azərbaycanın müxtəlif güşələrini, gözəl mənzərə və gül kompozisiyalarını əks etdirən müxtəlif rəsmlər çəkmişlər. Tanınmış rəssamlar, eləcə də müəllimlər məktəblilərə rəsmlərin çəkilişində müvafiq məsləhətlər vermişlər.

Parkda gənc rəssamların mövzuya aid çəkdikləri rəsmlərdən ibarət sərgi də nümayiş etdirilmiş və parka toplaşan paytaxt sakinləri tərəfindən böyük maraqla qarşılanmışdır. Gənc rəssamlar öz əsərlərinin nümayisi vaxtı tamaşaçılara izahlar vermişlər.

Rayon musiqi məktəblərinin ansamblları, solistləri, rəqqasları Sahil parkına toplaşanlar üçün konsert proqramları ilə çıxış etmişlər. Məktəblilərin iştirakı ilə müxtəlif Fleş-moblar keçirilmişdir.

Azərbaycan Rəssamlar İttifaqının katibi, xalq rəssamı Ağali İbrahimovun rəhbərliyi, uşaq yaradıcılıq mərkəzinin və rayon nümayəndələrinin iştirakı ilə yaradılmiş münsiflər heyəti məktəblilərin rəsmlərinə baxaraq qalibləri müəyyən etmişdir. Müsabiqənin qalibləri Səbail RİH-nin fəxri fərmanları və hədiyyələri ilə, digər iştirakçılar və sərgidə əsərləri nümayiş etdirilən gənc rəssamlar Səbail RİH sertifikatları ilə mükafatlandırılmışlar.

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, YAP Səbail Rayon Təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev, tanınmış ictimai xadim Fəxriyyə Xələfova və digər rəsmi qonaqlar, rayonun idarə, təşkilatlarının rəhbərləri, ali məktəb rektorları, pedaqoji kollektivlərin, veteranların və ictimaiyyətin nümayəndələri parkı gəzmiş. məktəblilərin çəkdikləri rəsmlər, parkdakı sərgi və yaradılan gül kompozisiyaları ilə tanış olmuş, iştirakçılarla səmimi söhbətlər etmişlər.

Gün ərzində davam edən sərgi və rəsm müsabiqəsi tədbirdə iştirak edən şəhər sakinlərinin və rayon ictimaiyyəti nümayəndələrinin diqqətini cəlb etmişdir.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# Pambığın birinci kompleks becərilməsi aparılır



Baş aqronom Namiq Bağırovun idarə etdiyi “Niva”ya oturub pambıq əkilən sahələrə gedirik. Maşının kimin olduğunu soruşuram. Sualıma belə cavab verir: “Şirkətindir. 2016-cı ildə veriblər. Sağ olsunlar. Mütəxəssisin “ayağı” olmasa, iş görə bilməz. 2 min 356 hektar sahədir. Gərək tez-tez baş çəkəsən, vəziyyətlə yaxından tanış olasan. Düzdür, bəzən mobil telefon da köməyə gəlir, ancaq sahədə olmaq, işin gedişini öz gözlərinlə görmək başqadır.

Kollektorun üstündəki torpaq yolla irəliləyirik. Arpa və buğda zəmiləri xəfif əsən mehdən dəniz kimi dalğalanır. Sünbül bağlamış sahələr bol məhsuldan xəbər verir. Namiq maşınını kollektorun kənarında qurulmuş alaçığın yanında saxlayır. Elə bu vaxt ucaboylu bir nəfər bizə yaxınlaşır. Namiq bizi tanış edir: “Məmmədağa Fərəcovdur”. Məhsulunuz bol olsun, maşallah, yaxşı çıxış almısınız” - deyirik. “Bu təkcə mənim işim deyil, - əli ilə aqronomu göstərir, - onların da əməyi çoxdur, nə lazımdır edirlər ki, zəhmətimiz hədər getməsin. Əgər vaxtında keyfiyyətli şum aparmasan, arat etməsən, lazımi gündə əkinə başlamasan, aqrotexniki tədbirlərə düzgün əməl etməsən, becərməni yüksək keyfiyyətlə başa çatdırmasan, yüksək məhsul götürə bilməzsən” - deyir. Bir qədər ara verib söhbətini davam etdirir: “Sovetlər zamanı kəndimizdəki kolxozda işləmişəm. Kolxoz sədrimiz Sosialist Əməyi Qəhrəmanı Nuruş Əliyev idi. Rəhmətlik çox tələbkar adam idi. Kənd təsərrüfatının bütün sahələrini, eyni zamanda, pambığın dilini yaxşı bilirdi. Yaxşı yadımdadır - briqadirlərin birinin sahəsində suvarma zamanı nöqsana yol verilmişdi. Daha doğrusu, sahənin aşağı hissəsində su yığılıb göllənmişdi. Ona görə həmin briqadiri işdən azad etdi. Bir dəfə də bir mexanizatorun sovkaya qarşı dərmanı düzgün səpmədiyini, görüb cəzalandırdı”.

Kultivator sahənin baş hissəsinə çatanda dayanır. Mexanizator kabinədən düşüb yanımıza gəlir. “MKT-Neftçala” filialının baş aqronomu bizi onunla tanış edir: “Bu cavan oğlan ən yaxşı mexanizatorlarımızdan olan Ruslan Əsgərovdur. Gənc olmasına baxmayaraq, öz işinin ustasıdır”. Sonra o, mexanizator Ruslandan: “Hə, işlər necə gedir: - deyə soruşur və sözünə davam edir: “Görürsən, yaxşı çıxış alınıb. Çalış, bitkilər zədələnməsin. Danışdığımız kimi, hər hektara 100 kiloqram amafos gübrəsi verin”. Sahibkar Məmmədağa kişi: “Elə də edirik” - deyir.

Söhbət zamanı öyrənirik ki, Məmmədağa kişi keçən il də bu yerdə pambıq əkib. Hər hektardan 50 sentner məhsul götürüb. Türkiyədən gətirilən lifsiz sortun məhsuldarlığından razılıq etdi. M. Fərəcov təkcə pambıq əkməklə kifayətlənmir. Pay torpağından başqa, 5 hektar həmkəndlilərindən və 4,6 hektar bələdiyyədən torpaq icarəyə götürüb, taxıl, yonca əkib. Mal-qara saxlayır. Onunla sağollaşıb ayrılanda: “Qonağım olun, görürsünüz, qoyun-quzum da var. Sizin sayənizdə mən də bir az istirahət edərəm” - dedi. Təklifinə və təkidinə baxmayaraq minnətdarlıq edib ayrılırıq.

“MKT-Neftçala” filialı bu il 570 nəfər fermer və torpaq mülkiyyətçisi ilə 2 min 356 hektarda pambıq məhsulu yetişdirmək üçün müqavilə bağlamışdır. Şum, mala, səpin prosesləri artıq arxada qalmışdır. Əkilən sahələrdə optimal müddətdə normal çıxış alınmış, birinci kompleks becərmə işlərinə başlamışdır.

***Seyran CAVADOV, “Azərbaycan”***




# Sağlam bədəndə sağlam ruh olar













İsmayıllı Olimpiya İdman Kompleksi təkcə yerli gənclərin deyil, həm də ölkə idmançılarının sağlamlıq ocağına çevrilib.

Ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafına son illər daha çox diqqət yetirilməkdədir. Bu amil bir növ dövlət siyasətinin ayrıca bir istiqaməti kimi həyata keçirilir. Bunun da real nəticəsi çoxsaylı beynəlxalq turnirlərdə idmanın fərqli növləri üzrə ön yerləri tutan idmançılarımızın üzrəngli bayrağımızı yüksəklərə qaldırmalarına yol açır. Qeyd olunan kontekstdən yanaşdıqda görünən odur ki, regionlarımızda da çoxsaylı perspektivli idmançılar yetişməkdədir. Ölkə rəhbəri, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin təşəbbbüsü ilə regionlarda tikilən olimpiya kompleksləri bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Bunlardan biri də hələ 2009-cu ildə oktyabrın 29-da Prezident İlham Əliyevin xeyir-duası ilə açılan İsmayıllı Olimpiya İdman Kompleksidir.

Kompleksin açılması rayonda idmanın inkişafına real təkan verib. İsmayıllı Olimpiya İdman Kompleksinin direktoru Tofiq Hümbətov bildirdi ki, hər il rayonda idmançıların sayı artır. İlk mərhələdə burada cəmi 5 idman qrupu fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 20-yə çatıb. Rayon gəncləri arasında respublika çempionları, Avropa və MDB ölkələrində keçirilən idman turnirlərinin iştirakçıları var.

Təkcə keçən il rayonda idmanın müxtəlif növləri üzrə 71 tədbir keçirilib. Bu tədbirlərin 9-u beynəlxalq, 23-ü respublika, 39-u isə rayon miqyasında keçirilib. Həmin tədbirlərdə ümumilikdə 4060 nəfər idmançı iştirak edib.

Keçən il Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş poverliftinq üzrə beynəlxalq turnirdə Kamil Qafarov birinci yerə layiq görülüb. Elə həmin ilin noyabrında isə Moskva şəhərində keçirilən dünya çempionatında o, həmin idman növü üzrə 6-cı dəfə dünya çempionu titulunu qazanıb. Pençak-silaf karate idman növü üzrə dünya çempionatının təsnifat mərhələsində isə Bənövşə İsmayılova birinci yerə sahiblənib.

Bakı şəhərində Beynəlxalq Şahmat Federasiyasının keçirdiyi RAPİD turnirində isə Cahangir Niftəliyev birinci yeri tutub. Budo Döyüş Növləri Federasiyasının Bakı şəhərində təşkil etdiyi dünya kuboku uğrunda uşaqlar və yeniyetmələr, gənclər və böyüklər arasında yarışlarda Hüsniyyə Sadıqzadə, Əkbər Kərimov, İlkin Əzizov və Ləman Əkbərova birinci pilləyə qalxıblar.

Qol güləşi, ağır və yüngül atletika üzrə həm fərdi idmançılar, həm də rayon komandaları respublika çempionu olublar. İsmayıllı Olimpiya İdman Kompleksində velosiped idmanı bölməsi də fəaliyyətə başlayıb. Həmin idman növü üzrə də rayonda yarışlar və bir sıra yürüşlər keçirilib.

Bu il də İsmayıllı idmançılarının uğurlar silsiləsi davam etməkdədir. Rayon gənclər və idman idarəsi, YAP rayon təşkilatı gənclər birliyi, dövlət humanitar və texnologiya kolleci, rayon təhsil şöbəsi, peşə tədris mərkəzi, Olimpiya İdman Kompleksi ilə birgə tədbirlərin icrasına üstünlük verir. İlin əvvəlindən gənclərlə iş sahəsində 11 tədbir keçirilib. Onlardan ikisi respublika, doqquzu isə region və rayon miqyaslı olub. İdmanın müxtəlif növləri ilə bağlı da 23 tədbir keçirilib. Bu tədbirlərin biri beynəlxalq, on biri respublika, 11-i isə rayon miqyasında keçirilib. Həmin tədbirlərdə 960 nəfər idmançı iştirak edib və nəticələr uğurlu olub. Rayon gəncləri arasında respublika çempionları, Avropa və MDB ölkələrində keçirilən idman turnirlərinin iştirakçıları var.

İsmayıllı İdman Olimpiya Kompleksi dəfələrlə respublikadakı analoji qurumlar arasında İdman və Gənclər Nazirliyi tərəfindən birinci yeri tutub. Bu, heç də əbəs deyil. Belə ki, velosiped, güləş, cüdo, futbol federasiyaları ilə davamlı əməkdaşlıq edilir. İsmayıllıdakı kompleksdə Azərbaycan Gimnastika Federasiyasının da respublika çempionatı keçirilib. “Qarabağ” futbol klubunun əvəzedici heyəti, “Bakı” və “Vətən” futbol klubları da mütəmadi məşqlərini burada keçirirlər. Bundan əlavə, zonalararası U-16, U-17 qızlar arasında respublika futbol komandalarının oyunları da kompleksdə reallaşdırılır.

Biz kompleksdə olarkən öyrəndik ki, Azərbaycan Ağır Atletika Federasiyasının idmançıları təlim-məşq toplantısındadır. Bundan əlavə, qızlar arasında zonalararası respublika futbol komandalarının oyunu keçirilirdi.

Əvvəlcə Azərbaycanın ağır atletika üzrə yığma komandasının baş məşqçisi, idman ustası, dünya və Avropa çempionatlarının iştirakçısı Asif Məmmədova yaxınlaşırıq. Onun dedikləri: - İsmayıllı Olimpiya İdman Kompleksində mayın 24-dək intensiv məşqlər keçiriləcək. Hazırda milli komanda yenidən formalaşdırılır. Əsas diqqət yeniyetmə və gənc idmançılara verilib. Ümumi idmançı sayı 24 nəfərdən ibarətdir. Bunlardan 12 nəfəri qadın, 12-si isə kişilərdir. İlin sonuna doğru bir neçə yarışlar keçiriləcək. Qarşıda Argentinada yeniyetmələrin olimpiya oyunları var. Həmin yarışma üçün oğlanlar üzrə bir lisenziya var. Lisenziya şəxsi deyil, komanda hesabına qazanıldığı üçün ən perspektivli idmançı komanda arasından seçilərək həmin beynəlxalq idman tədbirinə göndəriləcək. Əlavə olaraq digər beynəlxalq idman tədbirləri də gözlənilir. Bütün zəruri ehtiyaclar isə İdman və Gənclər Nazirliyi ilə Azərbaycanın Ağır Atletika Federasiyası tərəfindən təmin olunur. İstər buradakı məkanda, istərsə də təlim məşqlərin əsas hissəsinin keçirildiyi Şüvəlandakı Ağır Atletika Akademiyasında, AAF Park yaşayış məntəqəsində yüksək səviyyədə məşqlər təmin olunur. İlin əvvəlində isə təlim məşqlər Ukraynada olub. İdmançılar onlara yaradılan şəraitdən razıdırlar.

Ağır atletika üzrə üçqat Avropa çempionu və İslam Həmrəyliyi Oyunlarının bürünc mükafatçısı Səbinə Əzimova deyir ki, 7 ildir idmandadır. 12 yaşından ağırlıqqaldırma ilə məşğuldur. İlk uğurunu 2015-ci ildə qazanıb. İsveçrədə keçirilən Avropa çempionatında 30-dan çox ölkənin idmançıları arasında birinci yeri tutub. Növbəti iki ildə də həmin nəticə təkrarlanıb. Hazırda cari ilin oktyabr ayında keçiriləcək gənclərin Avropa çempionatına hazırlaşır. Sentyabr ayında isə tələbələrin Avropa birinciliyində iştirak edəcək.

Bədən Tərbiyəsi Akademiyasının tələbəsi olan Səbinə qələbələrinin sayını artırmaqla üçrəngli bayrağımızı yüksəklərə qaldırmaq əzmindədir.

AFFA-nın qərb regionu üzrə koordinatoru Taleh İsbatov isə bildirdi ki, 2010-cu ildən başlayaraq AFFA-nın təşkilatçılığı ilə qadın futboluna dəstək və qadınlar arasında futbola marağı artırmaq məqsədilə çempionat keçirilir. İlk dəfə bu çempionat məhz İsmayıllı Olimpiya İdman Kompleksində keçirilib. Yarışlar Prezident sərəncamı və UNİCEF-in dəstəyi ilə reallaşdırılır. Qərb regionu üzrə 10 komanda var. Hazırda final qarşılaşmasıdır. Oyun “Gömrükçü” və “İsmayıllı” komandaları arasında keçirilir. Qalib komanda Bakıda 3-cü yer uğrunda mübarizə aparacaq. Qaliblərə isə kubok, medallar və həvəsləndirici mükafatlar təqdim ediləcək.

Göründüyü kimi, regionların inkişafının dövlət siyasətinin prioritet istiqamətinə çevrilməsi bütün sahələrlə yanaşı, idmanın da stimullaşdırılmasına təsirsiz ötüşmür. İdman isə sağlamlıq deməkdir. Sağlam bədəndə sağlam da ruh olar deyimindən çıxış etmiş olsaq, düşünürük ki, ölkəmizin gələcəyi etibarlı əllərdədir.

***Əli SƏLİMOV, “Azərbaycan”***

# Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Lənkəran Dövlət Universiteti
### *açıq tenderə dəvət edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:
**LOT 1.** LDU-da cari təmir işləri.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50 ünvanından ala bilərlər.

**İştirak haqqı 550 (beş yüz əlli) manatdır.**
**Əlaqələndirici şəxs: Vaqif Şahvərən oğlu Quliyev**
**Telefon: (025) 255 00 25**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**Lənkəran Dövlət Universiteti**
**Hesab: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**"KapitalBank" ASC-nin Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**

**Ünvan: AZ 4200, Lənkəran şəhəri,**
**H.Aslanov xiyabanı, 50. Faks: (025) 255 27 86**
***www.lsu.edu.az, office@lsu.edu.az***

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 14 iyun 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 29 iyun 2018-ci il saat 17:00-a qədər Lənkəran şəhəri, Həzi Aslanov xiyabanı, 50 ünvanında yerləşən Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 02 iyul 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Lənkəran Dövlət Universiteti
### *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) lot üzrə keçirilir:**
**LOT 1.** LDU-da digər tikililərin inşası işləri.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştiak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50 ünvanından ala bilərlər.

**İştirak haqqı 750 (yeddi yüz əlli) manatdır.**
**Əlaqələndirici şəxs: Vaqif Şahvərən oğlu Quliyev**
**Telefon: (025) 255 00 25**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
Lənkəran Dövlət Universiteti

**Hesab: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**"KapitalBank" ASC-nin Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**

**Ünvan: AZ 4200, Lənkəran şəhəri,**
**H.Aslanov xiyabanı, 50. Faks: (025) 255 27 86**
***www.lsu.edu.az, office@lsu.edu.az***

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 iyun 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 05 iyul 2018-ci il saat 17:00-a qədər Lənkəran şəhəri, Həzi Aslanov xiyabanı, 50 ünvanında yerləşən Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 06 iyul 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan Respublikası Təhsil Nazirliyi
## *Lənkəran Dövlət Universiteti inventarın alınması üzrə*
## kotirovka sorğusu elan edir

İddiaçıların təklifləri 17 may 2018-ci il saat 16:00-dək qəbul olunur. İddiaçıların təklifləri 17 may 2018-ci il saat 16:30-da Lənkəran şəhəri, Həzi Aslanov xiyabanı, 50 ünvanında açılacaqdır.
Əlaqələndirici şəxs: Vaqif Şahvərən oğlu Quliyev
Telefon: (025) 255 00 25. Faks: (025) 255 27 86
Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50
www.lsu.edu.az, office@lsu.edu.az

***Tender komissiyası***

# Azərbaycan Respublikası Təhsil Nazirliyi
## *Lənkəran Dövlət Universiteti*
## kotirovka sorğusu müddətinin dəyişdirilməsi haqqında
### B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universitetinin "Azərbaycan" qəzetinin 21 aprel 2018-ci il tarixli 89 (7816) sayında dərc olunmuş kotirovka sorğusu üzrə sənədlərin təqdim olunması tarixi 14 may 2018-ci il saat 16:00-a, zərflərin açılma vaxtı isə 14 may 2018-ci il saat 16:30-a dəyişdirilir.
Əlaqələndirici şəxs: Vaqif Şahvərən oğlu Quliyev
Telefon: (025) 255 00 25. Faks: (025) 255 27 86
Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50
*www.lsu.edu.az, office@lsu.edu.az*

***Tender komissiyası***

Təkrar

# "Azərişıq" ASC 2018-ci ildə inzibati binaların tikintisi üzrə işlərin satın alınması məqsədilə
### *açıq tender elan edir*

**Tender 3 (üç) LOT üzrə keçirilir:**

**LOT-1** Şirvan RETSİ-nin inzibati binasının tikintisi işlərinin satın alınması - **300 manat**
**LOT-2** Salyan RETSİ-nin inzibati binasının tikintisi işlərinin satın alınması - **300 manat**
**LOT-3** Lerik RETSİ-nin inzibati binasının tikintisi işlərinin satın alınması - **300 manat**

**"Azərişıq" ASC**
**VÖEN: 9900069391**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**Benefisiarın Bankı: "KapitalBank"ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93; daxili: 22-83).*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (**www.tender.gov.az**).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30 may 2018-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **07 iyun 2018-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **08 iyun 2018-ci il tarixində saat 16:00-da** Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Azərişıq" ASC-nin əməkdaşları 20 mindən artıq gül əkib





Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar "Azərişıq" ASC tərəfindən müxtəlif tədbirlər həyata keçirilir.

Müasir Azərbaycan Respublikasının qurucusu və memarı Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə ictimai həyatın bütün sahələri ilə yanaşı yeni yaşıllıqların salınmasına da xüsusi diqqət yetirib.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ölkəmizdə ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələrinə, həmçinin "Azərişıq" ASC-də yaranmış ənənəyə uyğun olaraq növbəti güləkmə aksiyası Bakı şəhərinin Zirə Mədəniyyət Mərkəzi - Ekopark ərazisində keçirilib, 20 mindən artıq gül əkilib.

Əkilən güllərin mühafizəsi və onlara mütəmadi qulluq göstərilməsi məqsədilə bütün zəruru tədbirlər görülüb. "Azərişıq" ASC-nin əməkdaşları bu xeyirxah və nəcib tədbirlərdə hər zaman yüksək əhvali-ruhiyyə ilə iştirak edirlər.

***"Azərbaycan"***

# Atəşkəs rejimi 130 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 130 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Qaraqaşlı, Şirvanlı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Xızı şəhər İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyi

Xızı şəhəri İƏD-si üzrə keçiriləcək açıq tenderin ilkin sənədləri 30.05.2018-ci il saat 16:00 tarixinə təklifləri və bank zəmanətləri təqdim olunması müddəti 07.06.2018-ci il 16:00 tarixinə, zərflərin açılması 08.06.2018-ci il 11:00 tarixinə uzadılır.

## A L L A H   R Ə H M Ə T   E L Ə S İ N !

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının kollektivi Sənədlərlə və vətəndaşların müraciəti ilə iş şöbəsinin əməkdaşı Təranə Ələkbərovaya anası

**TAMİLLA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları Nicat Sultanova anası

**NAİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, YAP Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə bacısı

**YEVA BAĞI QIZI YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarov və məhkəmənin kollektivi hakim Şahin Abdullayevə anası

**SƏMAYƏ ABDULLAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Dövlət Universitetinin rektorluğu və kollektivi universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Elmar Xəlilova atası

**ŞİRİNBALA XƏLİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Energetika Nazirliyinin rəhbərliyi və kollektivi SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə bacısı

**YEVA YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Fərhad Əmirbəyova atası

**FİKRƏT ƏMİRBƏYOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azneftkimyamaş" ASC-nin İdarə Heyətinin sədri Əli Qaraxanov SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə bacısı

**YEVA YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8770
Sifariş 1364